İNAM İNDEKSİ 04

Dekabr / 2020

STM

# VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ ALİ BAŞ KOMANDANIN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## ANALİTİK HESABAT











SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

İNAM İNDEKSİ / 04
Xüsusi buraxılış

Dekabr 2020

# VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ ALİ BAŞ KOMANDANIN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

Sosioloji sorğu əsasında hazırlanmış
**ANALİTİK HESABAT**

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti

Bakı - 2020

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu
**Redaktor:** Aqşin Məmmədov
**Dizayner:** Qurban Cəlilov

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

"Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradındakı nitqindən*

# MÜNDƏRİCAT


GİRİŞ....................5

SORĞUNUN METODOLOJİ PRİNSİPLƏRİ....................8

I BÖLMƏ. 2020-Cİ İLDƏ PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ....................10

1.1. Ölkə başçısının 2020-ci ildəki fəaliyyətinin ictimai rəydə qiymətləndirilməsi....................10
1.2. Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinin müvafiq zaman intervalı üzrə müqayisəli təhlili....................12

II BÖLMƏ. ALİ BAŞ KOMANDANIN HƏRBİ-SİYASİ STRATEGİYASI....................14

2.1. Prezidentliyi dövründə İlham Əliyevin genişmiqyaslı müharibəyə hazırlığı....................14
2.2. Genişmiqyaslı müharibəni və qalibiyyətimizi şərtləndirən amillər....................14
2.3. Müharibə dövründə əhalinin təhlükəsizliyi....................16
2.4. Birgə bəyanata ictimai münasibət....................16

III BÖLMƏ. VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ PREZİDENTİN İNFORMASİYA SİYASƏTİ......17

3.1. Beynəlxalq informasiya məkanında mövqeyimizi şərtləndirən amillər....................17
3.2. Prezidentin beynəlxalq mediaya müsahibələri və xalqa müraciətləri ictimai rəydə....................18
3.3. Prezidentin ictimai-siyasi fəaliyyətinə dair informasiya mənbələri....................19

IV BÖLMƏ. PREZİDENTİN XALQA MÜRACİƏTLƏRİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ....................22

4.1. Prezidentin xalqa müraciətlərinin əhalidə yaratdığı təəssürat....................22
4.2. Prezidentin çıxışlarında və xalqa müraciətlərində yaddaqalan ifadələri....................22
4.3. Vətən müharibəsindən sonra Prezidentin xarakterinə ictimai münasibət....................23

V BÖLMƏ. VƏTƏN MÜHARİBƏSİ FONUNDA ALİ BAŞ KOMANDANIN FƏALİYYƏTİNƏ İCTİMAİ MÜNASİBƏT....................24

5.1. Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin ictimai rəydə qiymətləndirilməsi...24
5.2. Qarabağ müharibəsi: qələbə və anım günlərinin müəyyənləşdirilməsi, müharibə iştirakçılarının təltif olunması və sosial təminatları ilə bağlı dövlət qərarları ictimai rəydə......24

VI BÖLMƏ. POSTMÜHARİBƏ DÖVRÜ: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YENİDƏNQURMA TƏŞƏBBÜSLƏRİ İCTİMAİ RƏYDƏ....................26

6.1. İşğaldan azad edilmiş ərazilərin bərpa müddəti....................26
6.2. Azərbaycanın keçdiyi yeni mərhələdən əsas gözləntilər....................26

VII BÖLMƏ. İNAM VƏ ETİMADIN DİNAMİKASI....................28

7.1. Prezidentə inam və etimad....................28
7.2. Milli Məclis və məhkəmə institutlarına inam və etimad....................28
7.3. İcra hakimiyyəti orqanlarına inam və etimad....................29

NƏTİCƏ....................32

# GİRİŞ

Sosial Tədqiqatlar Mərkəzi (STM) yarandığı vaxtdan etibarən dövlət başçısı, Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsindəki fəaliyyəti ilə bağlı ictimai rəy sorğuları əsasında analitik hesabatlar təqdim edir.

Sorğular Azərbaycanda davamlı aparılması baxımından ilk dəfə olmaqla yanaşı, dünya təcrübəsində "İnam indeksi", həm də performans kimi məlum olan, dövlət başçılarına ictimai rəydə etibar, dəstək reytinqlərini müəyyən edən tədqiqatlarda tətbiq edilən elmi metodlarla aparılır. Bu silsilədən olan tədqiqatlarda əsas məqsəd ictimai rəydə prezidentin fəaliyyətinə münasibəti operativ öyrənmək, çevik dəyərləndirmək, rüblük monitorinqlərin nəticələrini müqayisəli təhlil etməklə ictimai rəyin dinamika və tendensiyalarını izləməkdir.

Təqdim edilən rəy sorğusu 2020-ci ilin son rübündə müasir tariximizin Zəfər salnaməsinin yazıldığı Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətinə münasibəti əks etdirir. Sözügedən dövrdə Azərbaycanın siyasi liderinin milli maraqlara və siyasi iradəsinə əsaslanan qərarları sayəsində müstəqil dövlətçiliyimizin tarixində yeni-şanlı Zəfər səhifələri yazıldı. Müvafiq olaraq, Prezidentin fəaliyyəti ilə bağlı ictimai rəydə inam və etimad daha da yüksəlib.

Vətən müharibəsində qələbənin milli dövlətçiliyimizin taleyində tarixi-siyasi, ideoloji dəyəri, lokal, regional və qlobal müstəvilərdə beynəlxalq əhəmiyyəti, Azərbaycanın əldə etdiyi yeni hərbi-geosiyasi üstünlük və statusu, bir sıra analitiklərin "Azərbaycanın müharibə modeli", "Qələbə formulu" kimi adlandırdığı yeni hadisə hələ uzun zaman tədqiqat və müzakirələrin mövzusu olacaq.

STM-in "İnam indeksi" silsiləsinin davamı olaraq təqdim edilən bu hesabatda 2020-ci ilin son rübündə Prezident İlham Əliyevin fəaliyyətinə ictimai münasibətin nəticələri əksini tapıb.

2020-ci il sentyabrın 27-də II Qarabağ-Vətən müharibəsi başladı. Həmin gün dövlət başçısı xalqa ilk müraciətini bu sözlərlə bitirdi: "Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!".

Bir-birinin ardınca işğaldan azad edilən, lokal Qarabağ torpaqları regional geosiyasi transformasiyalara və qlobal əhəmiyyətli hadisələrə vəsilə oldu. Azərbaycanın Vətən müharibəsi beynəlxalq hərbi və geosiyasi gündəmdə "zəlzələ effekti"ni yaratdı. Qarabağda ən müasir hərbi-texnoloji inqilabın nəticələrinin tətbiq edildiyi hərbi əməliyyatlar qlobal ekspert cəmiyyəti tərəfindən "5-ci nəsil müharibə", "XXI əsrin müharibəsi" kimi səciyyələndirildi. Dünya mediasında qaynar xəbər başlıqlarının episentrini, hərbi analitiklərin qızğın müzakirələrinin mövzusunu təşkil etdi.

Müasir dövlətçilik tariximizin hərbi-siyasi təqviminə "Vətən müharibəsi, Qələbə/Zəfər günləri" adlanan səhifələri əbədi həkk edildi.

**Təqdim edilən rəy sorğusunda respondentlərə aşağıdakı istiqamətlər üzrə suallar ünvanlanıb:**

*- Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi;*

*- Qarabağın hərbi yolla azad edilməsinə inamın əsasında duran amillərin öyrənilməsi;*

*- Vətən müharibəsində qələbəmizi təmin edən əsas amillərin dəyərləndirilməsi;*

*- 2020-ci ildə ölkə başçısının fəaliyyətində daha çox təqdir edilən və təqdir edilməyən məqamlar;*

*- Müharibə və pandemiya dövründə əhalinin hiss etdiyi əsas təhlükələrin öyrənilməsi.*

Vətən müharibəsində qələbə 2003-cü ildən hədəfə alınan "Böyük strategiya"nın gerçəkləşdiyi tarixi həqiqət anı oldu. Bu gün Zəfər tarixini mümkün edən əsas determinantlardan biri Prezidentin ölkəmizdə daxili ictimai-siyasi sabitliyi təmin etməyə qadir olmasıdır.

Bu da öz növbəsində "Böyük strategiya"da ordu quruculuğunun aparıcı statusuna dəlalət etməklə yanaşı, dövlət başçısının tarixin sınağından çıxmış "Ordum varsa, yurdum var" imperativini nə qədər ciddi hesab etməsinə işarədir. Məhz bu siyasətin nəticəsində, qlobal indekslərdə regionun ən güclü ordusu kimi yer alan Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi altında Zəfər ordusuna, XXI əsr 5-ci nəsil müharibəsindən qalib çıxan rəşadətli orduya çevrildi.

Dövlət başçısının hərb siyasəti nəticəsində ordumuz sarsılmaz milli birliyin, Qarabağda hər qələbədən sonra ucalan bayrağımızın simvoluna, Azərbaycana beynəlxalq rəğbət və hörmətin, polietnik və çoxkonfessiyalı xalqımızın Azərbaycançılıq dəyərlərinə sadiqliyinin, ayrılmaz həmrəyliyinin nümayişinə çevrildi. Son iki əsrdə nəinki dövlətçilik tariximizdə, həmçinin dünya tarixində rast gəlinməyən, demək olar

ki, heç bir ölkəyə nəsib olmayan qalibiyyət hadisəsi - işğal edilmiş torpaqların hərbi güclə geri qaytarılması baş tutdu. Təsadüfi deyil ki, Ali Baş Komandanın son 200 ildə itirilmiş torpaqları ilk dəfə geri alması respondentlərin 96.4%-i tərəfindən 2020-ci ildə ölkə başçısının fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirilib. Sitat: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi" (Prezident İlham Əliyev).

Rəy sorğusunda "Ali Baş Komandanın genişmiqyaslı hərbi əməliyyatlara başlamaq qərarı verərkən ən çox nəyə güvəndi?" sualına respondentlərin cavabında da ilk yerdə ordu və xalq sıralanır. "Vətən müharibəsində qələbəmizin əsasında hansı amillər dayanır?" sualına cavab verən respondentlərin 64,1%-i "müasir hərbi texnoloji təminatlı ordu"nu bu amil qismində görür.

**❐ "Xalqa müraciətlər" və ictimai rəy: sarsılmaz milli birliyə, səfərbərliyə çağırış və yeni qələbə xəbərlərinin bəyan olunması**

Vətən müharibəsinin gedişində Ali Baş Komandanın fəaliyyəti ilə bağlı keçirilən ictimai rəy sorğusunda dövlət başçısının xalqa müraciətlərinin dəyərləndirilməsi də mühüm yer tutur. 65.6% respondent Ali Baş Komandan İlham Əliyevin xalqa daim qələbə müraciətləri etməsini təqdir edib. Sentyabrın 27-dən başlayan müraciətlər, Prezidentin nitqləri respondentlər tərəfindən milli birliyin təmin edilməsi, eləcə də siyasi, tarixi, mənəvi və ideoloji əhəmiyyəti baxımından yüksək qiymətləndirilib.

Dövlət başçısının sentyabrın 27-də yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına etdiyi ilk müraciət xalqımızı səfərbərliyə çağırışın müjdəsi oldu. Bu müraciətlərin otuz ilə yaxın Ali Baş Komandanın əmrini gözləyən xalqımızda necə mənəvi-rüh yüksəkliyi yaratdığını sözlə ifadə etmək çətindir. Müqəddəs Vətən müharibəsinin başlanması ilə bağlı bəyanat minlərlə könüllü vətəndaşın hərbi səfərbərlik çağırışına qoşulmasına start verdi.

Sonrakı müraciətlər, paradoksal olaraq, yalnız yeni qələbələrin bəyan edilməsinin gözləntisinə çevrildi. "Xalqa müraciət" ifadəsi ictimai rəydə yeni qələbə müjdəsi ilə eyniləşdi. Hər bir vətəndaşın bu müraciətləri evdə, işdə, küçədə, ictimai nəqliyyatda ürək döyüntüsü ilə gözləməsi, ən başlıcası, Ali Baş Komandana, Zəfərə mütləq inamı respondentlərin cavablarında da öz əksini tapıb. Paradoksal hesab ediləcək bu inamın nədən qaynaqlanmasının özü də tədqiqatların mövzusudur. Müraciətlərin ana xəttini "Hər şey Vətən üçün! Hər şey Qələbə üçün! Birlikdə güclüyük!" ideyası təşkil edirdi.

Onu da vurğulamaq lazımdır ki, daxili auditoriyaya ünvanlanmış olsa da, Ali Baş Komandanın xalqa müraciətləri bir sıra nüfuzlu xarici mətbu orqanlarda da gündəmə çevrildi. Düşmən ölkənin mediası da müraciətlərdə deyilən hər kəlməni diqqətlə izləyirdi.

Respondentlər 44 günlük müharibənin gedişində Prezidentin xalqa müracətləri ilə bağlı rəylərində ilk olaraq döyüşlərə rəhbərlik edən ali şəxsin gecə-gündüz tükənmək bilməyən fədakarlığını, səmimiyyətini, müharibənin gedişatı ilə bağlı dövlətimizin mövqeyinin xalqla bölüşməsini, şəffaflıq və hesabatlılıq kimi dövlət idarəçilik prinsiplərinin üstünlüyünü vurğulayıblar. Digər mühüm məqamlar kimi müraciətlərdə Prezidentin sosial şəbəkədəki səhifələri üzərindən işğaldan azad olunan kənd, qəsəbə və şəhərlər haqqında məlumatları xalqa çatdırması ictimai rəydə böyük ruh yüksəkliyi formalaşdırdı.

Müraciətlərdəki ifadələrin xalqımızın dilində yeni deyimlərə çevrilməsi, uşaqdan böyüyə nitqlərin əzbər söylənilməsi, sosial şəbəkələrdə kütləvi paylaşılması, dövlət başçısına olan səmimi hisslərin nümayişi olmaqla yanaşı, müharibənin gedişində həm də böyük ruh yüksəkliyini təmin etdi.

**❐ Qarabağ zəfərinə gətirən Azərbaycan xarici siyasəti ictimai rəydə**

Son 17 ildə xarici siyasətdə, Qarabağla bağlı həqiqətlərin dünyaya çatdırılmasında dövlətimizin "informasiya blokadasından informasiya hücumuna" qədər gəldiyi yol göz önündədir. Xalqımız illərlə qəbul edilən onlarla ədalətsiz qətnamələrə şahidlik edib. Dünyaya münaqişəni həll edən tərəf kimi təqdim edilən Minsk qrupuna üzv ölkələrin Vətən müharibəsində ortaya qoyduğu qərəzli mövqe siyasi əxlaq və beynəlxalq hüququn bütün çərçivələrini aşdı. Sitat: "Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi" (Prezident İlham Əliyev).

Məhz hərbi-strateji təfəkkür sayəsində döv-

lətimiz formalaşmaqda olan nadir tarixi fürsəti milli zəfərin əzəmətinə çevirməyi bacardı.

**❒ Qlobal media gündəmini silkələyən müsahibələr informasiya müharibəsinin "xüsusi təyinatlı qüvvəsi" oldu**

Ay yarım davam edən Vətən müharibəsində Prezidentin çoxsaylı xarici KİV-lərə verdiyi müsahibələr informasiya müharibəsi cəbhəsində dünya erməni və antiazərbaycançı şəbəkəsinin bütün səylərinin üzərindən xətt çəkdi. İlham Əliyevin parlaq şəxsi keyfiyyətləri ilə baş tutan ardıcıl müsahibələr "informasiya bombası" effektini yaratdı, düşməni bu sahədə tərksilah etdi. Müsahibələr informasiya cəbhəsinin xüsusi təyinatlı qüvvəsinə çevrilərək, Azərbaycanın otuz illik haqq davasından dönməyəcəyinin, sentyabrın 27-dən dövlət başçısına edilən fövqəladə aqressiv xarici təzyiqlərin dəf edilməsinin bəyanına çevrildi. Respondentlərin bu müsahibələrlə bağlı rəyləri sorğu gedişində öyrənilib. "Dövlət başçısının fəaliyyətində hansı məqamları daha çox təqdir etdiniz?" sualına respondentlərin 61.2%-i dövlət başçısının xarici KİV-lərə müsahibələrini və hücum diplomatiyasını onun cari ildəki fəaliyyətinin əsas təqdirəlayiq elementlərinin biri kimi görür.

Əvvəlki illərlə müqayisədə II Qarabağ müharibəsindən sonra Prezidentin siyasi liderlik xarakterində aşkar edilən yeni dəyişikliklər, keyfiyyətlər də ictimai rəyə əsasən müsahibələr gedişində bəlli olub. Yeni keyfiyyətlər sırasında dövlət başçısının "Diplomatiya sahəsində bu qədər güzəştsiz və prinsipial olması", "Xüsusilə xarici televiziya kanallarına verdiyi müsahibələrdə sərt və kəskin məntiqinin müşahidə edilməsi", "Heydər Əliyev kimi milli lider olması", "Xalqa çox yaxın və onun fikrini olduqca dəyərləndirən insan olması" kimi cavablar səsləndirilib.

Dövlət başçısının diplomatik və hərbi strateq dühasının təntənəsi 10 noyabrda sülh razılaşması ilə bağlı bəyanat və Ermənistanın təslim olması, Ağdam, Laçın və Kəlbəcər rayonlarının bir güllə atılmadan alınması oldu. Bu sahədə dünyada ilk mənbə hesab edilən Sun-Tszının "Hərb məharəti" (Sun Tzu, The Art of War) əsərindəki 36 hərbi stratagemadan ən məşhuru "Düşməni döyüşsüz məğlub etmək" noyabrın 10-dan sonra baş verdi. Bu, Vətən müharibəsində Azərbaycanın etibarlı strateji tərəfdaş statusunu və beynəlxalq nüfuzunu daha da yüksək səviyyəyə qaldırdı. İlham Əliyevin diplomatiya modeli nəinki regionun simasını, bütövlükdə qlobal geosiyasi konfiqurasiyanı - qüvvələr balansını dəyişməsi proseslərinə təkan verdi. Beləliklə, ikiqütblü dünyanın çöküşünə vəsilə olan I Qarabağ müharibəsindən sonra, 27 sentyabrda başlayan II Qarabağ müharibəsi də köklü geosiyasi transformasiyanın başlanğıcı, geosiyasi təlatümlərin tətiyi kimi çıxış edəcək. Azərbaycan formalaşacaq yeni geosiyasi konfiqurasiyanın episentridir.

Vətən müharibəsində qələbəyə gətirən xarici siyasətimizin beynəlxalq geosiyasi əhəmiyyəti hələ dərindən dərk edilməyib. Prezident Azərbaycanın haqq işini döyüş meydanında müdafiə edərək, BMT qətnamələrini icra edərək, ədaləti bərpa etdi. Qarabağ zəfəri dünyada davam edən həll edilməmiş münaqişələrdən çıxış yolu, örnək-presedent oldu.

**❒ 2020-ci ilin iki müharibə cəbhəsindən qalib çıxan xalqın siyasi lideri**

Qeyd edilən bu məqam respondentlərin "Son 6 ayda Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini necə qiymətləndirirsiniz?" sualına cavabda əksini tapıb. Dövlət başçısının bu sahədə həyata keçirdiyi sosial dəstək paketləri 60,1% respondent tərəfindən bəyənilib.

Prezidentin pandemiyaya qarşı mübarizədə strateji qərarlar qəbul etməsi 58,8% respondent tərəfindən yüksək qiymətləndirilib. "Görünməyən düşmən" - koronavirusla müharibə dövründə dövlət başçısının qlobal mübarizə platformasını yaratmaq yönündə irəli sürdüyü təşəbbüslər xüsusilə diqqəti cəlb etdi.

Beləliklə, Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi bu sorğunun əvvəlkilərlə müqayisəli təhlili ictimai rəydə Prezidentə inamın dinamikasının indiyə qədər heç vaxt bu qədər yüksək olmadığını aşkara çıxarıb. Dövlətlərin qazandığı uğurlarla siyasi liderlərə yüksələn xətt üzrə artan inamın mütənasiblik təşkil etməsi kimi sosioloji qanunauyğunluq bu hesabatda bir daha əsaslı təsdiqini tapmış olur.

# SORĞUNUN METODOLOJİ PRİNSİPLƏRİ

**Sorğunun əhatə dairəsi**

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb.

**Respondentlərin seçimi**

Sorğuda təsadüfi üsulla seçilmiş 1217 respondent iştirak edib. Seçmənin birinci mərhələsində hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Növbəti mərhələdə hər yaşayış məntəqəsindən sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda təsadüfi qaydada stasionar telefon nömrəsi seçilib. Seçilmiş klasterlər üzrə telefon nömrələrinin olduğu baş məcmuda hər üçüncü nömrəyə zəng edilib. İmtina hallarında növbəti-üçüncü nömrə ilə əlaqə saxlanılıb.

**Tədqiqat yanaşması və sorğunun aparılma üsulu**

Tədqiqat yanaşması olaraq, təkrar tədqiqat dizaynı seçilib. Metodologiya elmində təkrar tədqiqat dizaynı uzunmüddətli dövrdə tendensiyaları ölçmək üçün istifadə edilir. Belə ki, cari sorğu 2020-ci ilin əvvəlində başlayan və artıq 2 dəfə keçirilmiş sorğunun sayca üçüncüsünü təşkil edib.

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibəsi üsulundan və SurveyToGo proqramından istifadə edilib. Sahə işi 2020-ci ilin 6-13 dekabr tarixlərində aparılıb. Telefon zəngləri saat 10:00-21:00 arasında həyata keçirilib. Sorğunun orta keçirilmə müddəti 23 dəqiqə 17 saniyə olub.

**Etik prinsiplər**

Bütün müsahibələrdə anonimlik ciddi şəkildə təmin edilib. Respondentlər tam əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığına səbəb olub.

**Təlimat**

Sorğuya başlamamışdan öncə intervüyerlərə Mərkəzin əməkdaşları tərəfindən təlim keçirilib. Eyni zamanda, təlim zamanı intervüyerlər anket və təlimatlarla təmin ediliblər. Son olaraq isə sorğu anketindəki hər bir sual üzrə geniş izahlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

**Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Təsviri analizlərlə yanaşı, dəyişənlər arasında bir sıra korrelyasiyalar (əlaqələr) müəyyənləşdirilib, həmçinin $X^2$ testindən istifadə edilib.

Seçmənin sayı əsasında statistik xəta əmsalı 2,8%, əminlik dərəcəsi 95%-dir.

# RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK TƏRKİBİ

## Cins tərkibi




## Yaş




## Məşğuliyyət




## Təhsil səviyyəsi




## Sosial təbəqə




## Sorğunun keçirildiyi iqtisadi rayonlar (%-lə)



# I Bölmə. 2020-ci ildə Prezidentin fəaliyyəti ictimai rəydə

## 1.1. Ölkə başçısının 2020-ci ildəki fəaliyyətinin ictimai rəydə qiymətləndirilməsi

Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən keçirilən digər sorğuların nəticələrinin təhlilinə əsasən deyə bilərik ki, Prezidentin son bir il ərzində müxtəlif istiqamətlər üzrə fəaliyyəti müvafiq zamanlarda əhali tərəfindən rəğbətlə qarşılanıb. Xüsusən də Prezidentin beynəlxalq arenadan Qarabağla bağlı səsləndirdiyi fikirlər ölkə əhalisi tərəfindən rəğbətlə və torpaqların alınacağına inamla qarşılanıb. Ali Baş Komandan İlham Əliyevin son 200 ildə itirilmiş torpaqları ilk dəfə geri alması ictimai rəydə müsbət reaksiya toplayıb. Respondentlərin 96.4%-i Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını 2020-ci ildə ölkə başçısının fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirib.

Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın sentyabrın 30-da Vətən uğrunda gedən döyüşlərdə xəsarət alan, yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşünü, noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşünü, daha sonra Füzuli və Cəbrayıl rayonları və Ağdam şəhərinə edilən səfərlərini əhalinin dörddə üçü (75.2%) rəğbətlə qarşılayıb.

STM tərəfindən mütəmadi keçirilən sorğular nəticəsində aydın olub ki, ölkə başçısı tərəfindən 2019-cu ildə başladılan və 2020-ci ildə də davam etdirilən kadr islahatları və korrupsiyaya qarşı mübarizə çərçivəsində qanunazidd hərəkətlərə yol verən məmurlara qarşı görülən sərt cəza tədbirləri əhali tərəfindən rəğbətlə qarşılanır. Nəticələrə əsasən 2020-ci il ərzində Prezidentin daha çox insan tərəfindən (68.5%) təqdir olunan digər fəaliyyəti qanunazidd fəaliyyətlərə yol verən bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin vəzifədən uzaqlaşdırılması olub.

Qanunazidd fəaliyyətlərə yol verən bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin vəzifədən uzaqlaşdırılmasını təqdir edənlərin daha çox hissəsi orta və yuxarı yaş qruplarına aiddir. 18-25 yaş qrupu üçün bu göstərici 47.1%, 36-45 və daha yuxarı yaş qrupları üçün 60.0%-dən daha yüksəkdir. Tam orta təhsillilərin 50.0%-i, peşə-ixtisas təhsili/kollec məzunlarının isə 77.0%-i sözügedən fəaliyyəti daha çox təqdir edib. Regionlar üzrə nəticələrə əsasən, ən aşağı göstərici Şəki-Zaqatalada (32.1%), ən yüksək göstərici isə Aranda (88.0%) qeydə alınıb.

Cəbhədə qazanılan zəfərlərlə bağlı Prezidentin xalqa verdiyi qələbə xəbərləri və sosial şəbəkə vasitəsilə işğaldan azad olunan kənd, qəsəbə və şəhərlərin adlarını şəxsən əhaliyə çatdırması cəmiyyətdə böyük ruh yüksəkliyi formalaşdırdı. Qeyd edək ki, təxminən hər üç respondentdən ikisi (65.6%) Ali Baş Komandan İlham Əliyevin xalqa daim qələbə müraciətləri etməsini təqdir edib.

Rəyi soruşulanların 62.1%-i dövlət başçısının xarici KİV-lərə müsahibələrini və hücum diplomatiyasını təqdir edib. Qeyd edək ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə dünyanın aparıcı media orqanlarına 27 müsahibə verib. Müsahibələrdə təxribatçı və dezinformasiya əsasında tərtib olunmuş bəzi suallara baxmayaraq, milli maraqlarımızı müdafiə edən Prezident İlham Əliyev informasiya müharibəsində mövqelərimizi bir qədər də möhkəmləndirib.

Prezidentin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi və sərt mövqe göstərməsi 60.2% respondent tərəfindən təqdir olunub. Gənclər arasında Prezidentin bu fəaliyyətini təqdir edənlər digər yaş qruplarına nisbətdə ən azı 20% daha aşağıdır (18-25 yaş qrupu üçün 41.2% təşkil edir). Sözügedən fəaliyyətin təqdir edilməsi halı yaş artdıqca daha geniş yayılıb.

Pandemiyanın mənfi təsirlərinin azaldılması və əhalinin sosial rifahının stabil vəziyyətdə saxlanılması üçün Prezident tərəfindən spesifik sosial yardım siyasəti həyata keçirilib, bu çərçivədə müvafiq qurumlara verilən tapşırıqlar əsasında müxtəlif tədbirlər görülüb. Prezidentin pandemiyanın mənfi təsirlərini azaltmaq üçün həyata keçirdiyi sosial yardım siyasəti 60.1% respondent tərəfindən təqdir olunub. Prezidentin bu fəaliyyətini təqdir edənlərin 77.6%-i pandemiya dövründə gəlirlərinin itirilməsi baxımından özünü təhlükəsiz hiss edib.

Dövlət sektorunda işləyənlərin 62.8%-i pandemiyanın mənfi təsirlərini azaltmaq üçün həyata keçirilən sosial yardım siyasətini bəyənibsə, müvafiq olaraq özəl sektorda çalışanlar (48.1%), işsizlər (59.7%) və tələbələr (44.1%) üçün bu göstəricilər nisbətən aşağıdır. 18-25 yaşında olan respondentlərin 42.2%-i aparılan siyasəti təqdir etdiyi halda, analoji göstərici yaş artdıqca yüksəlir.

Eyni zamanda, rəyi soruşulanların 3.9%-i belə düşünür ki, pandemiya nəticəsində əhaliyə dəymiş zərər adekvat formada kompensasiya edilməyib.

Prezident İlham Əliyev tərəfindən pandemiyaya qarşı mübarizənin idarə edilməsində strateji qərarların qəbul edilməsi 58.8% respondent tərəfindən təqdir edilib. Qeyd olunmalıdır ki, ilk dövrlərdə bəzi sahələrdə çətinliklər müşahidə edilsə də, tədricən tibbi maska təminatı ilə yanaşı, xəstəxanalarda çarpayıların sayının artırılması və genişmiqyaslı dezinfeksiya tədbirlərinin təşkili, eləcə də karantin rejiminin tətbiqi nəticəsində pandemiyaya qarşı mübarizədə müəyyən nəticələr əldə edilib. Lakin 58.8%-lik göstərici əhali arasında sözügedən istiqamətdə narazı olanların da az olmadığından xəbər verir.

57.1% respondent Prezidentin beynəlxalq tədbirlərin təşəbbüskarı olmasını bəyənir. Beynəlxalq tədbirlərə nümunə kimi Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünü və dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasını göstərə bilərik.

Qeyd edək ki, 2020-ci ildə ölkə başçısının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirdiyi görüşlərin ictimailəşdirilməsi 55.0% respondent tərəfindən təqdir olunub.

Respondentlərin böyük əksəriyyəti Prezidentin müxtəlif sahələr üzrə fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, onun fəaliyyətində təqdir etmədikləri hər hansı məqamın olmadığını bildirib. Belə ki, sorğuda iştirak edənlərin böyük əksəriyyəti (83.3%) 2020-ci ildə ölkə başçısının fəaliyyətində təqdir etmədiyi məqamın olmadığını qeyd edib. Bununla yanaşı, respondentlərin 16.7%-i, başqa sözlə, 203 nəfər 2020-ci ildə Prezidentin fəaliyyətində bir sıra sahələrdə sərt mövqe göstərmədiyi qənaətindədir.

Eyni respondent seqmentinin (203 nəfər) 42.1%-i dövlət başçısı tərəfindən qanunazidd fəaliyyətlərə yol verən bəzi məmurların cəzalandırılmamasını, 13.2% isə itirilmiş torpaqlarımızın hamısının qaytarılmamasını təqdir etmədiyi məqam kimi qeyd edib. Bununla yanaşı, qeyd edək ki, bir sıra keçmiş məmurlara qarşı çoxsaylı cinayət işləri açılıb və zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Bu göstəricilər bəzi rayonların icra hakimiyyətlərində və digər strukturlarda hələ də neqativ halların qalmasından da xəbər verə bilər.

***Diaqram 1.***

**Bir vətəndaş kimi 2020-ci ildə ölkə başçısının fəaliyyətində hansı məqamları daha çox təqdir etdiniz?**




1. Son 200 ildə itirilmiş torpaqları ilk dəfə geri aldı
2. Qazilərlə görüşdü və azad olunmuş torpaqlara səfər etdi
3. Qanunazidd fəaliyyətlərə yol verən bir sıra icra hakimiyyəti başçılarını, yüksək vəzifəli şəxsləri vəzifədən uzaqlaşdırdı
4. Xalqa daima qələbə müraciətləri etdi
5. Xarici KİV-lərə müsahibələr verdi və hücum diplomatiyasından istifadə etdi
6. Korrupsiyaya qarşı mübarizəni gücləndirdi və sərt mövqe göstərdi
7. Pandemiyanın mənfi təsirlərini azaltmaq üçün sosial dəstək siyasəti həyata keçirdi
8. Pandemiyaya qarşı mübarizənin idarə edilməsində strateji qərarlar qəbul etdi
9. Beynəlxalq tədbirlərin təşəbbüskarı oldu
10. Hökumət qurumlarının nümayəndələri ilə görüşlərini ictimailəşdirdi
11. Digər

*Diaqram 2.*




1. Təqdir etmədiyim məqam olmadı
2. Qanunazidd fəaliyyətlərə yol verən bəzi məmurları cəzalandırmadı
3. Korrupsiyaya qarşı mübarizədə sərt mövqe göstərə bilmədi
4. İtirilmiş torpaqlarımızın hamısını qaytarmadı
5. Pandemiya nəticəsində əhaliyə dəymiş zərəri adekvat formada kompensasiya edə bilmədi
6. Sosial təminatla bağlı problemlər tam həll olunmadı
7. Ermənilərlə birgəyaşayışa icazə verildi
8. Rusiya sülhməramlılarının Azərbaycan ərazisinə gəlməsinə icazə verildi
9. Digər

## 1.2. Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinin müvafiq zaman intervalı üzrə müqayisəli təhlili

2019-cu ildə Prezident İlham Əliyev tərəfindən ölkədə başladılan köklü islahatlar hakimiyyət qollarını da əhatə etməklə, bir neçə istiqamətdə həyata keçirilib. İslahatların daha uğurlu, davamlı və dayanıqlı aparılmasında Prezident güclü iradə göstərməkdədir. Prezidentin fəaliyyətinə ictimai münasibətin dinamikasını öyrənmək məqsədilə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən müvafiq zaman intervallarında aparılan sorğularda da respondentlərə ölkə başçısının müvafiq istiqamətlərdəki fəaliyyəti ilə bağlı sual verilib.

Demək olar ki, əhalinin mütləq əksəriyyəti Prezidentin rəhbərliyi ilə ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətində görülən işləri “çox səmərəli” (94.6%), yaxud “əsasən səmərəli” (5.0%) dəyərləndirir ki, bu da 44 günlük Vətən müharibəsinin nəticələri fonunda başadüşüləndir. Müqayisə üçün bildirək ki, iyun ayında aparılan analoji sorğuda sözügedən sual üzrə nəticələr təxminən 5.0% daha aşağı idi. Bütün sorğu nəticələrini ümumiləşdirərək deyə bilərik ki, Prezidentin ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətindəki fəaliyyəti əhalinin mütləq əksəriyyəti tərəfindən çox yüksək qiymətləndirilib.

Ölkəmizin inkişafı və qazandığı uğurların əsasında duran əsas amillərdən biri də Prezidentin apardığı xarici siyasətdir. Həm indiki, həm də digər sorğularda da əhalinin böyük əksəriyyətinin çox yüksək qiymətləndirdiyi sahələrdən biri də Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətidir. Hazırkı sorğunun nəticələrinə əsasən, əhalinin mütləq əksəriyyəti Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətini müxtəlif dərəcələrdə səmərəli (85.1% “çox səmərəli”, 10.4% “əsasən səmərəli”) qiymətləndirir.

Aparılan kadr islahatlarına müsbət ictimai münasibət üzrə dəyişiklik demək olar ki, müşahidə edilməyib. Lakin iyun ayında keçirilən sorğuda “çox səmərəli” variantı 53.9% respondent tərəfindən seçilmişdisə, cari sorğuda “çox səmərəli” cavabı 65.4% tərəfindən seçilib. Son sorğuda kadr islahatlarını səmərəsiz qiymətləndirən respondentlərin çəkisi 8.2% təşkil edib. Ali təhsilli respondentlər digərləri ilə müqayisədə kadr islahatları sahəsindəki işləri daha səmərəsiz qiymətləndirir ($F=9.889$ (2), $p<0.01$).

2020-ci ilin əsas qayğılarından biri yeni nəsil koronavirus fonunda əhalinin sağlamlığının qorunması ilə bağlı idi. Rəyi öyrənilənlərin 89.9%-i əhalinin sağlamlığının qorunması istiqamətində Prezidentin gördüyü işləri müxtəlif dərəcələrdə səmərəli (70.5% “çox səmərəli”, 19.4% “əsasən səmərəli”) qiymətləndirib. 9.0% respondent isə əks mövqedən çıxış edib. İyun ayında keçirilən sorğuda bu məsələ nisbətən fərqli formada soruşulub (“Səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində”) və nəticələr müəyyən qədər fərqlənib. Belə ki, respondentlərin 46.7%-i gö-

rülən işləri "çox səmərəli", 32.6%-i isə "əsasən səmərəli" qiymətləndirib. Cari sorğuda olduğundan fərqli olaraq, həmin sorğuda mənfi münasibət bildirənlər 17.1% təşkil edib.

Prezidentin əhalinin sosial müdafiəsinin təminatı istiqamətindəki fəaliyyətini 91.4% respondent müxtəlif dərəcələrdə səmərəli hesab etsə də, əks mövqedə qərarlaşanların çəkisi 5.7%-ə bərabərdir. Maraqlıdır ki, iyun ayında keçirilən sorğuda da əldə edilən nəticələr cari nəticələr ilə demək olar ki, üst-üstə düşür.

Qeyri-neft sektorunun inkişafını 87.3% respondent müxtəlif dərəcələrdə yaxşı dəyərləndirib. Ali təhsilli respondentlər qeyri-neft sektorunun inkişafını digərlərinə nisbətdə daha aşağı qiymətləndirir ($F=15.048$ (2), $p<0.01$).

Prezidentin əhalinin sağlamlığının qorunması ($F=13.198$ (2), $p<0.01$); qeyri-neft sektorunun inkişaf etdirilməsi ($F=5.499$ (2), $p<0.05$); kadr islahatları ($F=10.337$ (2), $p<0.01$); əhalinin sosial müdafiəsinin təminatı ($F=14.156$ (2), $p<0.01$) istiqamətlərindəki fəaliyyətlərini digərləri ilə müqayisədə özlərini aşağı sosial təbəqəyə aid edən respondentlər arasında daha səmərəsiz qiymətləndirənlər üstünlük təşkil edir.

***Diaqram 3.***

**Son 6 ayda Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2020-ci ilin fərqli dövrlərində Prezidentin fəaliyyətinə ictimai münasibəti öyrənən üç sorğunun nəticələri əsasında fəaliyyət istiqamətlərinin müqayisəli təhlili növbəti diaqramda əks olunub.

***Diaqram 4.***

**Prezidentin müvafiq istiqamətlərdəki fəaliyyətinin dinamikası**




| | 1 | 2 | 3 |
|---|---|---|---|
| Ordu quruculuğu və təkmilləşdirilməsi | 96.0 % | 95.3 % | 99.6 % |
| Kadr islahatları | 87.9 % | 85.9 % | 86.4 % |
| Sosial müdafiə | 87.9 % | 91.0 % | 91.4 % |
| Xarici siyasət | 95.0 % | 82.9 % | 95.5 % |

# II Bölmə. Ali Baş Komandanın hərbi-siyasi strategiyası

## 2.1. Prezidentliyi dövründə İlham Əliyevin genişmiqyaslı müharibəyə hazırlığı

Torpaqlarımızın 20%-nin işğal altında olması bir Prezident kimi İlham Əliyevin ordu quruculuğu və ordunun təkmilləşdirilməsinə xüsusi diqqət göstərməsinə səbəb olub. Respondentlərin 29.8%-i bu qənaətdədir ki, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk illərdən genişmiqyaslı müharibəyə hazırlaşıb. Qeyd edək ki, Prezident İlham Əliyev 17 ildir ki, respublikaya rəhbərlik edir.

Sorğuda iştirak edənlərin 12.4%-i İlham Əliyevin prezidentlik dövrünə nəzər saldıqda 2020-ci ildən onun genişmiqyaslı müharibəyə hazırlaşdığını hiss edib. Bu fikri 2020-ci ilin iyul ayında baş verən Tovuz hadisələri ilə əlaqələndirmək olar. Belə ki, 44 günlük Vətən müharibəsindən bir neçə ay öncə baş vermiş hadisələr insanların müəyyən hissəsində daha böyük müharibənin yaxın gələcəkdə baş verməsi ehtimalını yaratmış ola bilər.

Sosial-demoqrafik xüsusiyyətlərə gəlincə isə yaş üzrə 46-55 və 56-65 yaş qruplarında olanlar 2003-2008-ci il variantını daha çox seçiblər - müvafiq olaraq 19.8% və 26.2%. İlham Əliyevin 2009-2013-cü illər ərzində genişmiqyaslı müharibəyə hazırlaşdığını hiss etdiyini bildirənlər əsasən 46-55 yaş qrupunda cəmləşib. Sözügedən sualda “2019-2020-ci illər” variantını

***Diaqram 5.***

**İlham Əliyevin prezidentlik dövrünə nəzər salsaq siz neçənci ildən onun genişmiqyaslı müharibəyə hazırlaşdığını hiss edirdiniz?**




seçənlərin 24%-i 26-35 yaş qrupuna aiddir.

Rəyi soruşulanların 20.2%-i bildirib ki, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu illərdə onun genişmiqyaslı müharibəyə hazırlıqlar görməsini heç vaxt hiss etməyib. Bu fikri bildirənlər 26-65 yaş qrupları üzrə demək olar ki, eyni dərəcədə paylanıb. Qeyd etmək lazımdır ki, Prezidentin müharibə ilə bağlı önəmli tezisi bundan ibarət olub ki, nəyi necə, nə vaxt etmək lazımdır, bunu yalnız özü bilir.

## 2.2. Genişmiqyaslı müharibəni və qalibiyyətimizi şərtləndirən amillər

44 günlük müharibə həm milli birliyin, həm xalq-Ali Baş Komandan, həm də xalq-ordu birliyinin güclənməsinə böyük təkan verdi. Həmin dövrdə bu birliyi, dəstəyi xalq həm müxtəlif formalarda nümayiş etdirirdi, həm də Ali Baş Komandana çatdırırdı. Əhali düşünür ki, genişmiqyaslı müharibənin davam etdirilməsində Ali Baş Komandanın ən çox etibar etdiyi iki qüvvə ordu (67.2%) və xalq (54.8%) olub. Bu nəticə əhalinin Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirməsi ilə paralellik təşkil edir.

Prezidentin genişmiqyaslı müharibənin davam etdirilməsində orduya etibar etdiyini deyənlərin 71.7%-i qələbəmizdə müasir hərbi texnoloji təminatlı ordunun əsas rol oynadığını bildirib.

Azərbaycan 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözləsə də, bunların heç biri təmin olunmayıb. Nəticədə Azərbaycan öz gücü hesabına, hərbi-siyasi yolla bu problemi həll edib.

Ali Baş Komandanın genişmiqyaslı müharibənin davam etdirilməsində xalqa etibar etdiyini deyənlərin 59.3%-i Vətən müharibəsində qələbəmizdə Azərbaycan xalqının dövləti və ordunu dəstəkləməsinin əsas amillərdən biri olduğunu deyib. Cari ilin iyulunda baş verən hadisələrdən sonra izdihamlı yürüş göstərdi ki, Azərbaycan xalqı işğal faktını qəbul etmir və bununla barışmaq istəmir. Bu yürüş torpaqların işğaldan azad olunması istiqamətində dönüş nöqtəsi idi.

34.9% respondent belə düşünür ki, Ali Baş Komandan genişmiqyaslı müharibənin davam etdirilməsində öz qətiyyətinə və strateji təfəkkürünə etibar edib. Vətən müharibəsi dövründə Prezident öz müsahibələri ilə göstərdi ki, beynəlxalq münasibətlər tarixini çox gözəl bilir və hazırlıqlı siyasətçidir.

32.2% respondent belə düşünür ki, Ali Baş Komandan genişmiqyaslı müharibənin davam etdirilməsində Türkiyə və Pakistanın siyasi dəstəyinə etibar edib. Türkiyə həm cari ilin iyul hadisələri zamanı, həm də 27 sentyabrdan etibarən 44 günlük sülhə məcburetmə əməliyyatında siyasi və mənəvi cəhətdən Azərbaycanın yanında olduğunu nümayiş etdirib. Pakistanın da Vətən müharibəsində ölkəmizə siyasi və mənəvi dəstəyi gücümüzü daha da artırdı.

***Diaqram 6.***




Həm müharibə nəticəsində əldə olunan nailiyyətlərə, həm də əhalinin fikrinə əsasən deyə bilərik ki, II Qarabağ müharibəsindəki qələbəmizin əsas təminatçısı ordumuz və Ali Baş Komandandır. 64.1% respondent belə düşünür ki, Vətən müharibəsində qələbəmizin əsasında müasir hərbi texnoloji təminatlı ordu dayanır. Müasir texnologiyaların ordu quruculuğunda rolu danılmazdır. 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycan ordusunun Ermənistan ordusu üzərindəki mütləq üstünlüyünü şərtləndirən amillərdən biri əsgər və zabitlərin peşəkarlığı ilə yanaşı, məhz hərbi texnoloji təminat idi.

Rəyi soruşulanların 63.2%-i Prezidentin uğurlu xarici siyasətini Vətən müharibəsində qələbəmizin əsasında duran amillər sırasında qeyd edib. Respondentlərin yaşları ilə cavablarını müqayisə etdikdə ortaya maraqlı nəticə çıxır: 18-35 yaş aralığında olan respondentlər Vətən müharibəsindəki qələbəmizdə ordunu əsas amil kimi qeyd etdiyi halda, 36 yaşdan yuxarı respondentlər Prezidentin uğurlu xarici siyasətini əsas həlledici amil hesab edirlər.

44 gün ərzində ordu və Ali Baş Komandan cəbhədə döyüşləri apardığı dövrdə xalq da bu prosesdən kənarda qalmadı. Bu dövrdə hər bir azərbaycanlı öz imkanları və bacarıqları çərçivəsində orduya və dövlətə müxtəlif formalarda dəstək nümayiş etdirdi. Əhalinin yarısı (50.5%) düşünür ki, Vətən müharibəsində qələbəmizin əsasında Azərbaycan xalqının dövləti və ordunu dəstəkləməsi dayanır. Xüsusilə qeyd etmək lazımdır ki, Vətən müharibəsi dövründə dövlətçilik nöqteyi-nəzərindən mühüm addımlar atıldı və genişmiqyaslı konsolidasiya halı müşahidə olun-

***Diaqram 7.***



du. Bütün siyasi partiyalar bu dövrdə öz siyasi mövqelərini kənara qoyaraq Prezident İlham Əliyevi dəstəklədilər və ona inam nümayiş etdirdilər.

38.0% respondent Vətən müharibəsində qələbəmizin əsasında Türkiyə və Pakistanın siyasi dəstəyinin, 30.5% respondent isə Prezidentin şəxsi iradəsinin durduğunu qeyd edib. Türkiyə və Pakistanın dəstəyi amilini özəl sektorda işləyənlər daha çox seçib (48,1%).

### 2.3. Müharibə dövründə əhalinin təhlükəsizliyi

Müharibə dövründə əhalinin özlərinə qarşı gözlədikləri iki təhlükə - Ermənistanın terror hücumuna məruz qalma (32.1%) və müharibə cinayətlərinə məruz qalma (35.7%) halları olub. Ermənistanın terror hücumuna məruz qalma qorxusu ən çox Yuxarı Qarabağ (54.2%), Abşeron (47.5%) və Aranda (45%) müşahidə edilib. Yaş qrupu olaraq qorxu ən çox 36-45 yaş aralığındakı respondentlər arasında yayılıb. Müharibə cinayətlərinə məruz qalma qorxusuna gəlincə isə Yuxarı Qarabağdan olan respondentlərin yarısından bir az çox hissəsi sözügedən məsələ barədə narahatdır ki, bu da regional bölgü üzrə ən yüksək göstəricidir. Gözlənildiyi kimi, yerləşdiyi coğrafi mövqeyə görə Gəncə-Qazax (48.2%) və Aran (47%) bölgəsinin əhalisi arasında da müharibə cinayətlərinə məruz qalma qorxusu az yayılmayıb. Gender cəhətdən qorxu qadınların arasında (41.2%) kişilərə (30.1%) nisbətdə daha çoxdur.

***Diaqram 8.***




### 2.4. Birgə bəyanata ictimai münasibət

Vətən müharibəsinin yekunlarına dair 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanat istər hərbi, istərsə də siyasi cəhətdən bu münaqişədə Azərbaycanın haqlı mövqeyini əks etdirdi. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2020-ci ilin 1-4 dekabr tarixlərində keçirilən "Vətən müharibəsinin yekunlarına ictimai münasibət" sorğusuna istinadən deyə bilərik ki, əhali arasında bu bəyanata kifayət qədər müsbət münasibət var. Belə ki, həmin sorğuya əsasən respondentlərin böyük əksəriyyətinin (85.9%) Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanata münasibəti müxtəlif dərəcələrdə (54.2% "tamamilə müsbət", 31.7% "əsasən müsbət") müsbətdir.

Cari sorğunun nəticələrinə əsasən 66.8% respondent belə düşünür ki, 10 noyabr tarixində imzalanmış bəyanat itki vermədən 3 rayonun işğaldan azad olunması ilə səciyyələnib. 61.5% respondent yuxarıdakı fikirləri təsdiq edərək düşünür ki, üçtərəfli bəyanat Azərbaycanın həm hərbi, həm də siyasi qələbəsini ifadə edir.

Sorğuda iştirak edənlərin yarısı (49.9%) isə düşünür ki, Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının imzaladığı üçtərəfli bəyanat Ermənistanın tam məğlubiyyətini ifadə edir.

Rəyi öyrənilənlərin 11.2%-i Qarabağın gələcəyi ilə bağlı qeyri-müəyyənliklərin qalmasından narahatdırsa, 5.2% və 5.8% respondent isə Ermənistan üzərində tam qələbəni əldə edə və istədiyimiz nəticələrə tam nail ola bilmədiyimizi düşünür. Bəyanatı mənfi xarakterizə edənlər 18-25 yaş qrupundakı respondentlər arasında digər qruplara nisbətdə ən azı 2 dəfə daha geniş yayılıb. Oxşar göstəricilər təhsil səviyyələri üzrə də müşahidə edilib. Belə ki, ali təhsillilərin 15%-i Qarabağın gələcəyi ilə bağlı qeyri-müəyyənliklərin qalmasından narahatdır. Analoji göstərici peşə-ixtisas təhsili /kolleci bitirən və tam orta təhsilli respondentlərin hər bir qrupu üçün 10% civarındadır. Eynilə ali təhsillilərin təxminən 10%-i istədiyimiz nəticələrə tam nail ola bilmədiyimizi düşünürsə, digər qruplar üçün bu göstərici 3.5%-dən azdır.

# III Bölmə. Vətən müharibəsi dövründə Prezidentin informasiya siyasəti

## 3.1. Beynəlxalq informasiya məkanında mövqeyimizi şərtləndirən amillər

Beynəlxalq informasiya məkanında ədalətsiz və qeyri-bərabər informasiya axınının ifrat dərəcədə yüksəlməsi fonunda milli maraqların təmin olunması bu istiqamətdə kompleks yanaşma tələb edir. Ölkəmizin haqlı mövqeyinin beynəlxalq informasiya məkanında periodik, sistemli və hərtərəfli təqdimatı informasiya siyasətinin əsas prioritetlərindən biri olmaqla ciddi strateji əhəmiyyətə malikdir. Məhz bu səbəbdəndir ki, II Qarabağ müharibəsinin hibrid xarakteri özlüyündə informasiya cəbhəsini də açıb.

Təhlillər göstərir ki, tətbiq edilən strategiya müharibə öncəsi, müharibənin gedişatı və müharibədən sonrakı dövr üçün geosiyasi üstünlüklərin saxlanılmasına hesablanıb. Beynəlxalq informasiya məkanında əsas dayaq nöqtəsi "II Qarabağ müharibəsi (Vətən müharibəsi) ədalətin təmin edilməsi və mövcud haqsızlıqların aradan qaldırılması üçün gərəkli olan məsuliyyətdir" tezisi ilə xarakterizə edilə bilər.

Sözügedən dövr ərzində bilavasitə Ali Baş Komandanın iştirakı ilə informasiya müharibəsinin əsas alətlərindən biri kimi seçilən beynəlxalq "aqressiv media" əsaslandırılmış faktlarla neytrallaşdırılıb. Nəticə etibarilə düşmənin "böyük yalan sənəti"nə əsaslanan informasiya əməliyyatları ciddi uğursuzluqlarla qarşılaşıb.

Ümumiyyətlə, respondentlərin əhəmiyyətli hissəsi (78.6%-i çox yaxşı və 16.8%-i qismən yaxşı olmaqla) əvvəlki dövrlərlə müqayisədə müharibə dövründə ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib. Müsbət rəy ilə çıxış edənlərin 29.5%-i ali təhsilli olduğu halda, 70.5%-i orta və peşə təhsillidir. Digər tərəfdən ölkəmizin beynəlxalq informasiya məkanında mövqeyini "çox yaxşı" qiymətləndirən 78.6% respondentin 66.5%-i Prezidentin xarici mediaya müsahibələrini müntəzəm olaraq izlədiyini bəyan etdiyi halda, 24.7%-i tez-tez, 6.7%-i nadir hallarda izlədiyini və 2.1%-i heç vaxt izləmədiyini bildirib.

Respondentlərin 87.7%-i beynəlxalq informasiya məkanında mövqeyimizin güclü olmasını Ali Baş Komandanın beynəlxalq media mənsublarına verdiyi intensiv müsahibələrdə müharibə və sülhü çərçivələmək bacarığı ilə əlaqələndirirlər. Bu qənaətdən çıxış edənlərin 43.9%-i 46-65 yaş aralığında olanlardır. Təhsil səviyyəsinə görə dəyərləndirmə aparsaq, bu fikirdən çıxış edənlərin 28.9%-i ali təhsilli, 71.1%-i isə orta və peşə təhsillilərdir.

Sözügedən üstünlüyü şərtləndirən digər amillər kimi Türkiyə Cümhuriyyətinin aparıcı

*Diaqram 9.*







1. Prezidentin həqiqətləri birbaşa dünyaya çatdırması/beynəlxalq mediaya müsahibələri
2. Türkiyənin aparıcı telekanallarının davamlı olaraq xəbərlər yayması
3. Xarici ölkələrin jurnalistlərinin Azərbaycana gələrək vəziyyətlə yerində tanış olması
4. Xaricdə yaşayan azərbaycanlıların informasiya məkanında aktiv fəaliyyəti
5. Ölkə əhalisinin sosial mediada (Facebook, Instagram, Twitter) fəallığı
6. Azərbaycandakı diplomatik korpus nümayəndələrinin bölgələrə səfərləri və aktiv fəaliyyəti
7. Diasporla İş üzrə Dövlət Komitəsinin aktiv və səmərəli fəaliyyəti

media orqanlarının prosesi davamlı olaraq işıqlandırması (65.7%) və heç şübhəsiz, digər xarici ölkələrin KİV nümayəndələrinin Azərbaycana gələrək vəziyyətlə yerində tanış olması (58.7%) çıxış edir. Türkiyə mediasının fəaliyyətini qabardan respondent kəsiminin 24.4%-ni gənc və orta nəslə aid respondentlər təşkil edib.

Respondent rəylərinə görə (38.8%) ölkə əhalisinin sosial mediada (Facebook, Twitter, Instagram və s.) mütəşəkkil fəallığı da mühüm faktorlar sırasındadır. Gənc nəsil nümayəndələrinin 38.0%-i bu fikri bölüşüb.

***Diaqram 10.***




### 3.2. Prezidentin beynəlxalq mediaya müsahibələri və xalqa müraciətləri ictimai rəydə

Ümumiyyətlə, yeni nəsil müharibə strategiyalarında informasiya müharibəsi hərbi əməliyyatlar üçün yol açan əsas savaş tipi kimi dəyərləndirilir. Məhz belə fövqəladə vəziyyətlərdə ədalətsiz və saxta (feyk) xəbər axınının qarşısının alınması yönündə bilavasitə Ali Baş Komandanın apardığı siyasi kommunikasiya strategiyasının əsas istiqamətləri kimi xarici mediaya müsahibələr və xalqa müraciətlər öz effektivliyi ilə seçilib.

Respondentlərin 66.3%-i Ali Baş Komandanın xarici media nümayəndələrinə müsahibələrini müntəzəm və 23.6%-i tez-tez izlədiyi halda, sadəcə 1.8%-i nadir hallarda izləyib. İlkin dəyərləndirmələrə görə, həm də onu qeyd edə bilərik ki, respondentlər Prezidentin xalqa müraciətlərinə müqayisə etibarilə daha çox üstünlük verib (72.2% "müntəzəm", 22.2% "tez-tez izləyib"). Bu istiqamətdə nadir hallarda izlədiyini bəyan edən respondentlər ümumi rəyi öyrənilənlərin sadəcə 1.4%-ni təşkil edib. Ali Baş Komandanın beynəlxalq mediaya müsahibələrini və xalqa müraciətlərini ümumiyyətlə izləmədiyini bəyan edən respondentlər isə müvafiq olaraq 2.3% və 1.0% civarında təsbit edilib. Bu respondent kəsiminin profilinə diqqət etdikdə 79.3%-nin orta sosial təbəqədən, 75.9%-nin orta təhsilli və 31.0%-nin 26-35 yaş aralığında olduğunu qeyd edə bilərik. Sözügedən respondentləri məşğuliyyət perspektivindən qiymətləndirsək, 51.7%-nin məşğul əhali olduğunu görə bilərik.

Xarici mediaya müsahibələrdə respondentlər tərəfindən əsas üstünlüklər kimi dəyərləndirilən məqamlara gəlincə, Ali Baş Komandanın təxribat xarakterli bütün suallara ustalıqla cavab verməsi 85.3%, peşəkarlığı ilə həmsöhbətlərini gözləmədikləri vəziyyətə salması 82.8% və Prezidentin yüksək səviyyəli xarici dil bacarıqlarına malik olması 79.4%-lə əsas faktorlar kimi ön plana çıxır.

Respondentlərin 56.0%-i Ali Baş Komandanın bu müsahibələr zamanı olduqca soyuqqanlı

***Diaqram 11.***



davrandığı və hisslərini peşəkarlıqla idarə etdiyi rəyindən çıxış ediblər.

Bununla yanaşı, respondentlərin 2.8%-i təxribat xarakterli suallara dolğun cavabların verilməməsi mövqeyindən çıxış edib. Bu mövqedən çıxış edən respondentlərin təhsil səviyyəsinə diqqət etsək, 30.3%-nin ali təhsilli, 69.7%-nin isə orta və peşə təhsillilərdən ibarət olduğunu, 78.7%-nin isə orta sosial təbəqədən olan respondentlərin təmsil etdiyini müşahidə edə bilərik. Digər tərəfdən yuxarıda qeyd etdiyimiz aspektdən çıxış edən respondentlərin 75.8%-i sözügedən müsahibələri müntəzəm, 24.2%-i isə tez-tez izlədiyini bildirib.

Ali Baş Komandanın xalqa müraciətlərinə mövqe bildirən respondentlər əsasən 44 günlük müharibə dövründə onun proseslərə ciddi nəzarət etməsi (73.4%), sadə dildə ifadə edilmiş siyasi ritorikaya üstünlük verməsi (63.8%) kimi məqamları ön plana çıxarıb.

***Diaqram 12.***




1. 44 gün ərzində bütün proseslərə nəzarəti və idarəni şəxsən özü etməsini
2. Nitqində istifadə etdiyi ifadələrin onu xalqa daha da yaxınlaşdırmasını
3. Xalq dilini, milli ənənələrimizi mükəmməl bilməsini
4. Müharibəyə gecə-gündüz rəhbərlik edərək şəxsi sağlamlığını belə ikinci plana qoymasını
5. Siyasi məsələlərdən uzaq, neytral insanların da anlayacağı siyasi şərhlər verə bilməsini
6. Bu çıxışlar artıq bizdə asılılıq yaradıb, davamlı olmasını istəyərdim
7. Digər

İctimai rəyin nəticələrinə əsaslanaraq informasiya müharibəsinin gedişində (44 gün ərzində) Ali Baş Komandanın nümunəsində siyasi kommunikasiyanın 3 əsas funksiyasının həssaslıqla reallaşdırıldığı tendensiyasını qeyd edə bilərik: birincisi, ortaya çıxan hərbi-siyasi problemlərin müəyyənləşdirilməsində bilavasitə iştirak etmək (siyasətçilər və media); ikincisi, problemlərin siyasi diskussiya ortamında hüquqi əsasını təmin etmək (yerli və xarici ictimai müzakirələr); üçüncüsü isə mübahisə mövzusu olmaqdan çıxmış və ortaq görüşün əldə edildiyi mövzuları gündəmdən çıxarmaq.

## 3.3. Prezidentin ictimai-siyasi fəaliyyətinə dair informasiya mənbələri

Ali Baş Komandanın xarici media mənsublarına müsahibələri və xalqa müraciətlərinə dair əsas informasiya mənbələri kimi respondent rəyində ilk sıralarda TV kanalları və sosial media platformaları qərarlaşıb. Müvafiq olaraq, 91.3% respondent məlumatları əsasən TV kanallarından, 29.3% respondent isə sosial media platformalarından əldə etdiyini bildirib. Bu istiqamətdə əhalinin ölkə başçısının yerli və xarici kanallara verdiyi müsahibə, xalqa müraciət və səfərlərinə dair növbəti məlumat mənbəyi kimi 8.1%-lik respondent rəyi ilə Prezidentin sosial şəbəkə hesabları qərarlaşıb. Prezidentin sözügedən istiqamətdə fəaliyyətinə dair məlumatları xəbər saytlarından cəmi 3.9%, internet TV-lərdən isə 2.4% respondent izləyib. TV kanallarının əsas məlumat mənbəyi kimi qeyd edilməsi ilə respondentlərin yaş artımı arasında müsbət asılılıq müşahidə edilib. Əvəzində, paralel olaraq gənc respondentlər arasında sosial media platformaları əsas məlumat mənbəyi rolunda çıxış edib. O cümlədən, Prezidentin sözügedən istiqamətdə fəaliyyətinə dair məlumatları ölkə rəhbərinin sosial şəbəkə hesablarından izlədiyini bildirənlərin 32.3%-ni 18-25 yaş qrupundan olan respondentlər təşkil edib. Sorğu nəticələrinin təhlilinə əsasən respondentlərin təhsil səviyyəsinin artması ilə ölkə rəhbərinin ictimai-siyasi fəaliyyətinə dair məlumatları əldə etmək üçün Prezidentin sosial şəbəkə hesablarından istifadə edilməsi arasında müsbət asılılıq müşahidə edilib.

***Diaqram 13.***

**Prezidentin müsahibələrini, xalqa müraciətlərini, səfərlərini əsasən haradan izləyirdiniz?**




1 TV-dən
2 Sosial şəbəkələrdən
3 Prezidentin sosial şəbəkə hesablarından
4 Xəbər saytlarından
5 İnternet TV-lərdən
6 I Vitse-prezidentin sosial şəbəkə hesablarından
7 Digər

Müharibə dövründə informasiya təhlükəsizliyini nəzərə alaraq internet resurslarına tətbiq olunmuş məhdudiyyət televiziya kanallarına olan

***Diaqram 14.***

**TV kanalların siyahısı**




***Diaqram 15.***

**Sosial şəbəkələrin siyahısı**




baxış saylarını daha da artırıb. Məhz 44 günlük müharibə dövründə 67.6% respondent məlumatları əsasən Azərbaycan televiziyasından (AzTV), 57.3% Xəzər TV-dən, 56.0% ATV kanalından əldə etdiyini bəyan edib. Növbəti pillələrdə 36.6%-lə İTV, 35.8%-lə Real TV və 35.2%-lə ARB kanalı yer alıb. Qeyd edək ki, bu nəticələr TV kanallarının media barometr, media landşaft kimi spesifik tədqiqatlar çərçivəsində müəyyən olunan ümumi reytinq göstəricilərini əks etdirmir və müharibə dövrü ilə məhdudlaşır. Ayrı-ayrı dövrlərdə televiziya kanallarına baxış sayları və onların aylıq, illik reytinq göstəriciləri fərqli ola bilər.

İşğaldan azad olunan ərazilərə dair qələbə

***Diaqram 16.***

**Prezidentin sosial şəbəkə hesablarının siyahısı**



xəbərlərinin şəxsən Prezident tərəfindən Twitter sosial şəbəkəsindən xalqa çatdırılması əhalinin bu platformadan daha çox istifadə etməsinə səbəb olub. Belə ki, ölkə rəhbərinin müsahibə,

***Diaqram 17.***




xalqa müraciət və səfərlərini sosial şəbəkə istifadəçilərinin 66.7%-i Prezidentin Twitter hesabından izləyir. Bu istiqamətdə Prezidentin Facebook və Instagram hesablarına müraciət edənlərin göstəricisi hər ikisi üzrə 23.2% təşkil edir.

Prezidentin müharibə dövründəki ictimai-siyasi fəaliyyətləri barədə məlumatları cəmi 2.4% respondent internet TV-dən əldə etdiyini bildirib. Qeyd olunan istiqamətdə Kanal 13 (31.0%) və Meydan TV (31.0%) ilk sırada qərarlaşıb. Respondentlərin cəmi 3.9%-i sözügedən istiqamətdə məlumatları xəbər saytlarından əldə etdiklərini bildirib. Onlardan 33.3%-i ölkə rəhbərinin müsahibə, xalqa müraciət və səfərlərinə dair məlumatları Oxu.az, 20.8%-i isə Azertag.az saytından izlədiyini bildirib. İnternet TV və saytları ilə bağlı baxış göstəricilərinin aşağı olması internet resurslarına tətbiq olunan məhdudiyyətlər ilə izah oluna bilər.

Yanvar-mart və aprel-iyun aylarında keçirilmiş hər iki sorğuda da müəyyən edilib ki, Prezidentin fəaliyyəti və çıxışlarını əhalinin əksəriyyəti televiziyadan izləyir - hər iki dövr üçün bu göstərici 81.1% təşkil edib. Lakin sentyabr-dekabr ayları üçün bu göstərici yüksələrək, 91.3% təşkil edib ki, bunu da Prezidentin xalqa müraciətlərini müntəzəm olaraq məhz televiziya üzərindən etməsi ilə əlaqələndirmək olar. Halbuki, Prezidentin fəaliyyətindən və çıxışlarından xəbərdar olmaq üçün internet resurslarına, sosial şəbəkələrə müraciət edənlərin sayında azalma müşahidə edilib ki, burada internet resurslarına tətbiq olunan məhdudiyyətin rolu istisna edilmir. Belə ki, sözügedən informasiya mənbəyi üzrə göstərici yanvar-mart və aprel-iyun aylarında müvafiq olaraq 41.7% və 49.8% təşkil etdiyi halda, son sorğuda 29.9%-ə bərabər olub. Prezidentin sosial şəbəkə hesablarına gəlincə isə bütün il üzrə yalnız 1-2% civarında dəyişiklik müşahidə edilib.

***Diaqram 18.***



# IV Bölmə. Prezidentin xalqa müraciətlərinin səciyyəvi cəhətləri

## 4.1. Prezidentin xalqa müraciətlərinin əhalidə yaratdığı təəssürat

Prezidentin siyasi nitqində istifadə etdiyi ifadələrin xalqda oyatdığı təəssüratların əsas nəticəsini insanların da gündəlik ünsiyyətdə o ifadələri işlətməyə başlamasında görənlər əhalinin əhəmiyyətli hissəsini - 79.7%-ni təşkil edir.

61.1% respondent hesab edir ki, dövlət başçısının nitqində istifadə etdiyi ifadələr xalq dilinə yaxın olduğu üçün aforizmlərə çevrilib. Rəyi öyrənilənlərin təxminən yarıya yaxını (48.8%) Prezidentin siyasi nitqində işlətdiyi ifadələrdən sonra insanların sosial şəbəkələrdə bununla bağlı paylaşımlar etməyə başladığını bildirib. Məşğuliyyət qrupları üzrə rəylərin müqayisəli təhlili çərçivəsində tələbələr bu mövqedən çıxış edən qrup olaraq önə çıxır - 82.4%.

Ətrafda bu ifadələrin yazıldığı yazılar, plakatlar məhz ölkə rəhbərinin çıxışlarının yaratdığı təəssüratlardan biri kimi əhalinin 35.5%-nin rəyində əksini tapıb. Bu, xüsusən də qələbə xəbərlərinin qeyd olunduğu vaxtda ətrafda müşahidə edilib. Regional müstəvidə sözügedən

***Diaqram 19.***




mövqedən çıxış edənlərin rəylərinin müqayisəli təhlilinə nəzər saldıqda, Aran (80.4%) və Quba-Xaçmaz (72.5%) iqtisadi rayonları yüksək nəticə ilə fərqlənir.

44 günlük Vətən müharibəsi davam edən dövrdə respondentlərin 7.2%-i Prezidentə münasibətini ona təşəkkür məktubu yazaraq bildirib. Prezidentə təşəkkür məktubu yazanlar içərisində digərləri ilə müqayisədə ən çox 56-65 yaş qrupundan olanlar üstünlük təşkil edir. Ali təhsilli respondentlərin 54.7%-i Prezidentə məktub yazıb ki, bu da digər təhsil səviyyəsindən olanlarla müqayisədə bu kateqoriyanın üstünlük təşkil etdiyini göstərir. Məşğulluq statusu baxımından dövlət sektorunda işləyənlər (35.6%) digərləri ilə müqayisədə təşəkkür edənlər arasında üstünlük təşkil edir. Prezidentə yazılan təşəkkür məktublarının regional bölgüsünə nəzər saldıqda, Bakının daha çox üstünlük təşkil etdiyini görürük: Bakı 41.4%, Aran 12.6%, Lənkəran 11.5%, Gəncə-Qazax 10.3%.

***Diaqram 20.***




## 4.2. Prezidentin çıxışlarında və xalqa müraciətlərində yaddaqalan ifadələri

Prezidentin xalqa müraciətlərinin xüsusi bir hissəsi onun bir çox ifadələrindən ibarət olub. Xalqın gündəlik danışıq dilinə keçməklə yanaşı, bu çıxışlar ümumilikdə Prezidentin xarakteri ilə bağlı insanlarda yeni fikirlər formalaşdırıb.

Vətən müharibəsi dövründə Prezidentin

çıxışlarında “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır və nida” ən çox yadda qalan ifadə olub. Ermənistan baş nazirinin “Qarabağ Azərbaycandır, nöqtə” ifadəsinə cavab olaraq İlham Əliyevin “Valday” diskussiya klubunda səsləndirdiyi “Qarabağ Azərbaycandır və nida” ifadəsi həmin dövrdən xalqda böyük əhval-ruhiyyə yaradaraq, işlək terminə çevrilib. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2019-cu ildə keçirilən “İnam indeksi” (1-ci buraxılış) sorğusunda respondentlərin 80%-i bu çıxışın Qarabağ probleminin həllində irəliləyişə səbəb olacağını bildirib. Məhz bunun nəticəsidir ki, həmin ifadə Vətən müharibəsindəki qələbələrimizin şüarına çevrilib. Analoji istiqamət üzrə ölkə rəhbərinin çıxışlarında ən çox yadda qalan ifadənin “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” olduğunu 66.8% respondent bildirib. Azərbaycanın qələbəsinin təmin edilməsində Ali Baş Komandanın polad siyasi iradəsinin rəmzi olaraq tanınan “Dəmir yumruq” şüarı 48.9% respondentin nəzərində ən çox yaddaqalan ifadələrdən biri kimi dəyərləndirilib. Prezidentin çıxışlarında səsləndirdiyi digər ifadələr də çox sayda respondentin yadında qalıb.

### 4.3. Vətən müharibəsindən sonra Prezidentin xarakterinə ictimai münasibət

44 gün davam edən II Qarabağ müharibəsi əhalinin mütləq əksəriyyətinin fikrində (81.6%) Prezident barədə müsbətə doğru təəssürat dəyişikliyinə səbəb olub. Kişilərlə müqayisədə fikirlərinin müsbətə doğru dəyişdiyini deyənlər arasında qadınlar üstünlük təşkil edib. Müvafiq olaraq bu rəqəm qadınlar üçün 83.7%, kişilər üçün 79.4%-dir. Prezidentin xarakteri ilə bağlı fikirlərinin müsbətə doğru dəyişdiyini deyənlərin 87.3%-nin Prezidentə etibarı artıb. Təxminən hər 5 nəfərdən birində Prezident barədə hər hansısa fikir dəyişikliyi müşahidə edilməyib. Bununla yanaşı, fikirlərində heç bir dəyişiklik olmadığını (18.2%) deyənlərin 74.8%-nin Prezidentə etibarı artıb.

81.6% respondentin nəzərində əsasən iki dəyişiklik önə çıxır. Belə ki, təxminən 70.0% respondent müharibə nəticəsində Prezidenti xalqa yaxın və xalqın fikrini olduqca önəmsəyən insan kimi tanıdığını bildirib. 67.3% respondent isə Prezidentin timsalında Heydər Əliyev kimi milli lider nümunəsini gördüyünü bildirib.

# V Bölmə. Vətən müharibəsi fonunda Ali Baş Komandanın fəaliyyətinə ictimai münasibət

## 5.1. Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin ictimai rəydə qiymətləndirilməsi

Ali Baş Komandanın Vətən müharibəsi dövründəki xidmətləri əhali tərəfindən böyük rəğbətlə qarşılanıb. Bu kontekstdə insanlar tərəfindən fərqli fikirlər söylənilib. Respondentlərin 29.8%-i Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin xüsusi adla qiymətləndirilməsinin tərəfdarı olduğunu bildirib. Sorğuda iştirak edənlərin 1/3-nin bu mövqedən çıxış etməsi onu göstərir ki, ictimaiyyət arasında məhz Ali Baş Komandan üçün xüsusi adın təsis olunmasının tərəfdarları çoxdur.

Rəyi soruşulanların 18.9%-i Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin yüksək qiymətləndirilməsini istədiklərini bildiriblər. Lakin bu respondentlər qiymətləndirilmənin necə edilməsi ilə bağlı konkret təklif irəli sürməyiblər.

***Diaqram 21.***




## 5.2. Qarabağ müharibəsi: qələbə və anım günlərinin müəyyənləşdirilməsi, müharibə iştirakçılarının təltif olunması və sosial təminatları ilə bağlı dövlət qərarları ictimai rəydə

Qeyd edək ki, 2020-ci il noyabrın 20-də Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunda edilən dəyişiklikdən sonra “Zəfər” və “Qarabağ” ordenləri, “Vətən Müharibəsi Qəhrəmanı”, “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, “Suqovuşanın azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə, “Füzulinin azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” və “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medalları təsis olunub. Artıq Prezidentin müvafiq sərəncamları ilə Vətən müharibəsində şücaət göstərmiş bir sıra hərbi qulluqçular orden və medallarla təltif olunub və olunmaqdadırlar.

İlkin mərhələdə respondentlərin mütləq əksəriyyəti - 93.7%-i (84.9%-i “çox yaxşı”, 8.8%-i isə “əsasən yaxşı”) müharibədə göstərdikləri xidmətlərə görə zabit və əsgər heyətinin təltif olunmasını müsbət qiymətləndirib. Maraqlı məqam ondan ibarətdir ki, respondentlərin 5.6%-i təltiflərlə bağlı məlumatlı olmadığını bildirib. 5.6%-lik bu respondent seqmentində təhsil səviyyəsinə görə üstünlüyü 63.2%-lik göstərici ilə orta təhsilli, sosial təbəqə aspektində isə 73.5%-lik göstərici ilə orta təbəqədən olan respondentlər təşkil edir. Digər tərəfdən, təsis olunan orden və medalların forma və adlandırmaları ilə bağlı məlumatsız olan respondent kəsimi ümumi respondentlərin 25.1%-lik hissəsindən ibarətdir. Bu respondent qrupunun 30.4%-i ali təhsilli, 69.6%-i isə orta və peşə təhsillilərdir. Həmçinin 79.4%-ni orta sosial təbəqədən olan respondentlərin təmsil etdiyini

müşahidə edə bilərik. Digər tərəfdən yuxarıda qeyd etdiyimiz aspektdən çıxış edən respondentlərin 5.6%-i Prezidentin xalqa müraciətlərini hərdən, 3.3%-i isə nadir hallarda izlədiyini bildirib.

Müvafiq tarixi günlərin qəbul edilməsi ilə bağlı qərara münasibətə gəlincə, respondentlərin mütləq çoxluğu tərəfindən bu qərar yüksək qiymətləndirilib. Belə ki, 27 sentyabrın Anım Günü kimi qeyd edilməsi ilə bağlı həmfikir olduğunu bəyan edən respondentlər rəyi öyrənilənlərin 96.7%-i, 8 noyabrın Zəfər Günü kimi qeyd edilməsi ilə bağlı qərarı dəstəkləyənlər isə rəyi öyrənilənlərin 99.0%-i civarındadır. 27 sentyabrın Anım Günü kimi qeyd edilməsi ilə bağlı verilmiş qərardan məlumatsız olduğunu deyənlər isə 2.8%-lik bir kəsimdir.

Şəhid ailələri və müharibə veteranlarının sosial rifahının yaxşılaşdırılması və dövlət qayğısının təmini istiqamətində müəyyən edilmiş müavinətlərə münasibətə gəldikdə isə deyə bilərik ki, rəyi öyrənilənlərin 64.2%-i buna müsbət yanaşma sərgiləyib (46.2%-i “çox yaxşı”, 18.0%-i “əsasən yaxşı”). Buna baxmayaraq, 16.4%-lik bir respondent seqmenti (9.2% “əsasən pis”, 7.2% “çox pis”) əks mövqe sərgiləyib. Bu respondent seqmentinin 24.1%-ni aşağı, 71.9%-ni orta və nəhayət, 4.0%-ni yuxarı sosial təbəqədən olan respondentlər, 48.2%-ni ali təhsilli, 51.8%-ni isə orta və peşə təhsillilər təmsil edir. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, sözügedən məsələ ilə bağlı məlumatsız olduğunu qeyd edən respondentlər ümumi rəyi öyrənilənlərin 17.5%-ni təşkil edir. 2.0% isə bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

***Diaqram 22.***



# VI Bölmə. Postmüharibə dövrü: işğaldan azad edilmiş ərazilərdə yenidənqurma təşəbbüsləri ictimai rəydə

## 6.1. İşğaldan azad edilmiş ərazilərin bərpa müddəti

Dünya hərb tarixinə diqqət etdikdə hər hansı bir müharibənin səbəbini əsas etibarilə bir öncəki savaşda axtarmağın vacibliyini görmüş oluruq. Bu səbəbdəndir ki, haqlı müharibənin qalibi kimi Ali Baş Komandan postmüharibə dövrü üçün geniş ictimai müzakirələri şərtləndirən yenidənqurma konseptlərinin hazırlaması ilə bağlı məlumatları daima cəmiyyətlə bölüşür. Tədqiqat çərçivəsində Prezidentin yenidənqurma planları ilə bağlı bəyan etdiyi təşəbbüslərə öyrənilən ictimai rəy aşağıdakı nəticələrlə xarakterizə edilə bilər.

İşğaldan azad edilmiş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam respondentlərin çoxunda müşahidə edilməkdədir. Belə ki, respondentlərin 97.7%-i bu qənaətdən çıxış edir (onların 69.6%-i bu işlərin qısa müddətdə reallaşacağını düşündüyü halda, 28.1%-i prosesin zaman alacağını güman edir). Maraqlı təsbit ondan ibarətdir ki, bu suala cavab verməkdə çətinlik çəkənlər respondentlərin 2.1%-ni təşkil etdiyi halda, inanmayanlar demək olar ki, yox səviyyəsindədir (0.2%).

***Diaqram 23.***




Bərpa planları ilə bağlı fikir bildirməkdə çətinlik çəkən rəyi öyrənilənlərin 15.4%-ni aşağı, 84.6%-ni orta sosial təbəqədən olan respondentlər, 11.5%-ni ali təhsilli, 88.5%-ni isə orta və peşə təhsillilər təmsil etməkdədir.

## 6.2. Azərbaycanın keçdiyi yeni mərhələdən əsas gözləntilər

Respondentlərin postbərpa işlərindən sonra region və eləcə də ölkəmiz üçün yeni mərhələdən əsas gözləntiləri kimi aşağıdakı istiqamətlər təsbit edilib.

Belə ki, məşğulluq və rifahın artacağını güman edənlər ümumi respondentlərin 75%-ni, yeni iqtisadi perspektivlər üçün zəminin yaranacağını 55.3%-ni təşkil edir. Rəyi öyrənilənlərin 43.6%-i isə II Qarabağ müharibəsinin dondu-

***Diaqram 24.***



rulmuş münaqişələrin həlli istiqamətində presedent olacağı qənaətini bölüşüb.

Məşğulluq və rifahın artacağını güman edən 75%-lik respondent kəsiminin 12.6%-i aşağı, 80.2%-i orta və 7.2%-i yuxarı sosial təbəqəni təmsil edir. Bu mövqedən çıxış edən respondentlərin tərkibində işsiz olanlar 15.9% təşkil edir.

Yeni iqtisadi perspektivlər üçün zəminin yaranacağını qeyd edən 55.3% respondentin coğrafi strukturunda yüksək gözlənti 70.2%-lik göstərici ilə Aran, aşağı gözlənti isə 32.6%-lə Dağlıq Şirvan iqtisadi regionuna məxsusdur.

II Qarabağ müharibəsinin dondurulmuş münaqişələrin həlli istiqamətində presedent olacağı qənaətini bölüşən respondentlərin profilində təhsil səviyyəsinə görə 47.5%-lik göstərici ilə orta təhsilli, yaş qrupuna görə 23.4%-lik göstərici ilə 56-65 yaş aralığında olan respondentlər üstünlük təşkil edir.

İctimai rəy sorğusunun ilkin təhlili cəmiyyətdə yenidənqurma proseslərinə konvensional yanaşmadan daha çox strateji yanaşmanın tətbiqi zəruriliyinə dair gözləntilərin olduğunu deməyə imkan verir.

# VII Bölmə. İnam və etimadın dinamikası

## 7.1. Prezidentə inam və etimad

Prezidentə olan ictimai inam və etimadın dinamikasında 2019-cu ilin axırlarından 2020-ci ilin axırlarına qədər təqribən bir illik dövr ərzində keçirilən sorğular zamanı müxtəlif dərəcəli dəyişikliklər müşahidə olunub. Cari ilin son rübündə Prezidentə olan inam və etimadının artdığını bildirənlər ümumi respondentlərin mütləq əksəriyyətini təşkil edib. İlin ortalarına doğru bu göstəricidə nisbi azalma müşahidə edilməsinə baxmayaraq, inam və etimadı dəyişməyənlər üstünlük təşkil edib.

***Diaqram 25.***




Prezidentə olan inam və etimadının artdığını bəyan edən respondentlərin faiz göstəricisi 2020-ci ilin yanvar-mart və aprel-iyun ayları üzrə müvafiq olaraq 58.1% və 24.6% təşkil etdiyi halda, analoji göstərici ilin son rübündə keçirilən sorğular zamanı 85.0%-ə bərabər olub.

2020-ci ilin mart (38.2%), iyun (71.7%) və dekabr (14.0%) ayları üzrə keçirilən sorğu nəticələrində inam və etimadının dəyişmədiyini bildirən respondentlərin mütləq əksəriyyəti (orta hesabla 97.0%-i) Prezidentə olan inam və etimadının dəyişməyərək yüksək qaldığını bəyan edib. Müvafiq olaraq, inam və etimadının azaldığını bildirən respondentlər isə 2019-cu ilin axırlarında 1.4%, 2020-ci ilin mart ayı üzrə 0.9%, iyun ayı üzrə 2.6%, dekabr ayı üzrə cəmi 0.1% təşkil edib.

Sorğu nəticələrinin təhlilinə əsasən respondentlərin Prezidentlə yanaşı I Vitse-prezidentə olan inam və etimadı da yüksələn dinamika ilə xarakterizə olunur. Belə ki, I Vitse-prezidentə inam və etimadının yüksək qaldığını, yaxud daha da artdığını bildirən respondentlər sorğu iştirakçılarının 94.0%-ni təşkil edib. Müqayisə üçün qeyd edək ki, iyun ayı üzrə keçirilən analoji sorğular zamanı ümumi respondentlərin 92.7%-i I Vitse-prezidentə etibar etdiyini bəyan edib.

***Diaqram 26.***




## 7.2. Milli Məclis və məhkəmə institutlarına inam və etimad

Sorğu nəticələrinin təhlili göstərir ki, Prezidentə və I Vitse-prezidentə olan ictimai inam və etimadda artım müşahidə olunarkən, hakimiyyətin digər qollarına inam və etimad səviyyəsi il ərzində müxtəlif istiqamətlərdə dəyişib.

2020-ci ilin fevral ayında keçirilən seçkilərdən sonra yeni formalaşan parlamentə mart ayı üzrə tam etibar etdiyini bəyan edən respondentlər 32.3% təşkil edərkən, iyun ayı üzrə müvafiq göstərici 25.7% təşkil edib. Parlamentə heç etibar etmədiyini və əsasən etibar etmədiyini bildirən respondentlər mart ayı üzrə müvafiq olaraq 12.3% və 8.4% təşkil edərkən, iyun ayı üzrə analoji göstəricilər 18.3% və 10% təşkil edib.

Dekabr ayı üzrə keçirilən sorğu nəticələrinin təhlilinə əsasən, 15.9% respondent Milli Məclisə inam və etimadının artdığını, 28.1% respondent dəyişməyib yüksək qaldığını bəyan edib. 13.7% respondentin Milli Məclisə inam və etimadı dəyiş-

məyib, aşağı olaraq qalıb. 3.5% respondent inam və etimadının azaldığını bildirib. Sorğu iştirakçılarının 22.9%-i inam və etimadının olmadığını bildirib.

Qərb ölkələrinin təcrübəsinə əsasən qeyd etmək olar ki, qanunvericilik hakimiyyətini həyata keçirən instituta əhalinin ümumi inam və etimad göstəricisinin 40%-50% təşkil etməsi ictimai sabitlik üçün kifayət edir. Bununla belə, hazırkı tendensiya sözügedən institutun öz fəaliyyətində ictimai rəyi nəzərə almasına və kommunikasiya imkanlarını genişləndirməsinə olan zərurətin ifadəsi kimi şərh oluna bilər.

Bənzər tendensiya məhkəmə orqanları üçün də xarakterikdir. Mart ayı üzrə məhkəmə orqanlarına tam etibar etdiyini bəyan edən respondentlər 30.9% təşkil edərkən, iyun ayı üzrə analoji göstərici 27.6% təşkil edib. Məhkəmə orqanlarının fəaliyyətinə ümumilikdə etibar etmədiyini bildirən respondentlər mart və iyun ayları üzrə müvafiq olaraq 24.7% və 20.5% təşkil edib.

Dekabr ayı üzrə keçirilən sorğu nəticələrinə əsasən, 14.5% respondent məhkəmələrə inam və etimadının artdığını, 25.6% dəyişməyib yüksəl qaldığını bəyan edib. Respondentlərin 1.6%-i inam və etimadının azaldığını, 11.6% dəyişməyib aşağı qaldığını bildirib. Ümumilikdə 22.4% respondent isə inam və etimadının olmadığı mövqeyini bölüşüb.

Nəticələrin təhlili məhkəmə hakimiyyəti orqanlarında ictimai inam və etimadı yüksəldəcək əlavə islahatlara ehtiyac olduğunu göstərir.

## 7.3. İcra hakimiyyəti orqanlarına inam və etimad

Aparılan sorğuların müqayisəsi göstərir ki, yuxarı icra orqanı olaraq Nazirlər Kabinetinə respondentlərin 24.2%-i inam və etimadının artdığını, 31.3% respondent dəyişmədən yüksək qaldığını bildirib. Sorğu iştirakçılarının 2.2%-i inam və etimadının azaldığını, 10.9%-i dəyişməyib aşağı qaldığını bildirib. Rəyi öyrənilənlərin 12.2%-i inam və etimadının olmadığı mövqeyini bölüşüb. 19.3% respondent bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

Nazirlər Kabineti ilə yanaşı, ictimai rəy sorğularında mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti də qiymətləndirilib. Belə ki, 44 günlük müharibə dövründə fəaliyyəti ən çox bəyənilən orqanlar Müdafiə Nazirliyi (61.5%), Daxili İşlər Nazirliyi (46.5%) və Xarici İşlər Nazirliyi (24.3%) olub. Son 6 ay ərzində fəaliyyəti bəyənilən orqanlar da eynidir. Hər iki dövrdə digər nazirliklərlə müqayisədə Müdafiə Nazirliyinin (37.7%) fəaliyyəti əhali tərəfindən Daxili İşlər Nazirliyi (35.8%) və Xarici İşlər Nazirliyinə (14.8%) nisbətdə daha müsbət qiymətləndirilib.

Lakin 44 günlük müharibə dövründə və son 6 ay ərzində fəaliyyəti ən az bəyənilən orqanlar arasında ilk sıralarda Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, TƏBİB və Təhsil Nazirliyi qərarlaşıb. Qeyd edək ki, cavablar çoxvariantlı olduğundan faiz həddi 100-dən yuxarı ola bilər.

Yerli icra hakimiyyəti orqanlarına inam etimadının artdığını 14.9% respondent bəyan edib. 28.7% respondentin inam və etimadı dəyişmədən yüksək qalıb. Rəyi öyrənilənlərin 3.6%-i inam və etimadının azaldığını, 12.9%-i dəyişmədən aşağı qaldığını bildirib. Sorğu iştirakçılarının 15.9%-i bu barədə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

Şəhər və rayon icra hakimiyyətlərinə inam və etimadı artan, yaxud dəyişmədən yüksək qalan respondentlərin regional bölgüsünə nəzər yetirsək, Quba-Xaçmaz, Yuxarı Qarabağ və Dağlıq Şirvan iqtisadi rayonları digərləri ilə müqayisədə nisbətən müsbət mənada fərqlənib. Yerli icra hakimiyyəti orqanlarına inam və etimadının azaldığını, yaxud dəyişmədən aşağı qaldığını bəyan edənlərin ümumi göstəricisi bu istiqamətdə islahatlara olan ehtiyacı göstərir.

Qeyd edək ki, Prezidentin "Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 17 mart 2020-ci il tarixli sərəncamından, "İşğaldan azad edilmiş ərazilərdə

***Diaqram 28.***



Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" 19 yanvar 2021-ci il tarixli fərmanından irəli gələn məsələlər yerli icra hakimiyyətləri ilə bağlı mövcud problemlərin aradan qaldırılmasında və yerli idarəçilik strukturlarına ictimai münasibətin müsbət istiqamətdə dəyişdirilməsində alternativ həll variantı kimi dəyərləndirilə bilər.

Yekun olaraq, sorğu nəticələrinə əsasən cari ilin ortalarından son rübünə doğru Prezidentə və I Vitse-prezidentə olan ictimai inam və etimadda yüksək artım qeydə alınıb. Halbuki, Milli Məclis, məhkəmə və yerli icra hakimiyyəti orqanlarına olan inam və etimadda üzrə əks olunan mənzərə həmin dövlət strukturlarının fəaliyyətini ictimai tələblər yönündə yenidən nəzərdən keçirməsinə və cəmiyyətlə əlaqə imkanlarını genişləndirməsinə olan ehtiyac kimi şərh edilə bilər.

***Diaqram 29.***



*Diaqram 30.*

**Fəaliyyətini ən çox bəyənmədiyiniz 3 hökumət strukturunun adını səsləndirin**



# NƏTİCƏ

Prezident İlham Əliyevin həm Vətən müharibəsi dövründə, həm də ümumilikdə 2020-ci ildəki fəaliyyəti əhali tərəfindən səmərəli qiymətləndirilir. 2020-ci il COVID-19 pandemiyası fonunda bütün dünyada olduğu kimi Azərbaycanda da çətinliklərin yaşandığı il oldu. Buna baxmayaraq, 2020-ci il Azərbaycan dövlətinin tarixində torpaqlarımızın işğaldan azad olunması nəticəsində zəfər tarixi olaraq yaddaşlara həkk olundu. Bu qələbənin əsasında ölkə başçısının geosiyasi vəziyyəti düzgün dəyərləndirməsi, resurslardan düzgün istifadəsi, diplomatik bacarıqları dayanır. Müsbət haldır ki, ölkə əhalisi Prezidentin bu fəaliyyətini təhlil edə bilir və müsbət dəyərləndirir. Torpaqlarımızın işğdaldan azad olunması həm də əhalidə ölkə başçısından növbəti illər üçün yeni gözləntilər yaradıb.

❑ Ali Baş Komandanın son 200 ildə itirilmiş torpaqlarımızı Vətən müharibəsində ilk dəfə işğaldan azad etməsi 2020-ci ildə ölkə başçısının fəaliyyətinin ən uğurlu nəticəsi kimi mütləq əksəriyyət tərəfindən təqdir edilib.

❑ Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın sentyabrın 30-da Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər alan, yaralanan, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında yaralı hərbçilərlə və noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşünü, həmçinin, Füzuli, Cəbrayıl rayonları və Ağdam şəhərinə səfərlərini əhalinin dörddə üç hissəsi rəğbətlə qarşılayıb.

❑ 2020-ci ildə də davam etdirilən kadr islahatları və korrupsiyaya qarşı qəti mübarizə çərçivəsində Prezidentin təqdir olunan digər fəaliyyəti - qanunazidd fəaliyyətlərə yol verən bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin vəzifədən uzaqlaşdırılması əhalinin əhəmiyyətli hissəsi tərəfindən rəğbətlə qarşılanıb.

❑ Cəbhədə qazanılan zəfərlərlə bağlı Prezidentin xalqa daim qələbə müraciətləri etməsi təxminən hər üç respondentdən ikisinin rəğbətinə səbəb olub.

❑ Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə dünyanın aparıcı media orqanlarına müsahibələrini və milli maraqlarımızın müdafiəsinə əsaslanan hücum diplomatiyasını hər üç respondentdən ikisi təqdir edib.

❑ Prezident İlham Əliyevin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi və bu istiqamətdə sərgilədiyi sərt mövqe əhalinin mühüm hissəsi tərəfindən rəğbətlə qarşılanıb.

❑ Analoji təsbit pandemiyanın mənfi təsirlərinin azaldılması və əhalinin sosial rifahının stabil vəziyyətdə saxlanılması üçün Prezident tərəfindən həyata keçirilən sosial yardım siyasətinə yönəlik ictimai rəylərin təhlili nəticəsində də müşahidə edilib. Prezidentin bu fəaliyyətini təqdir edənlərin əhəmiyyətli hissəsi pandemiya vaxtı gəlirlərinin itirilməsi baxımından özünü təhlükəsiz hiss edib. Eyni zamanda, rəyi soruşulanların çox az hissəsi belə düşünür ki, pandemiya nəticəsində əhaliyə dəymiş zərər adekvat formada kompensasiya edilməyib.

❑ Prezident İlham Əliyev tərəfindən pandemiyaya qarşı mübarizənin idarə edilməsində strateji qərarların qəbul edilməsini əhalinin yarısından çoxu təqdir etsə də, əldə olunan göstərici əhali arasında sözügedən istiqamətdə narazı olanların da az olmadığından xəbər verir.

❑ Əhalinin yarısından çoxu Prezidentin beynəlxalq tədbirlərin təşəbbüskarı olmasını bəyəndiyini bildirib.

❑ Sorğu zamanı 2020-ci ildə ölkə başçısının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirdiyi görüşlərin ictimailəşdirilməsi əhalinin yarısından çoxu tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilib.

❑ Sorğuda iştirak edənlərin böyük əksəriyyəti 2020-ci ildə ölkə başçısının fəaliyyətini təqdir etdiyi halda, bir sıra sahələrdə sərt mövqenin göstərilmədiyi qənaətinə hakim olanlar da var.

❑ Əhalinin təxminən yarıya yaxın hissəsində qanunazidd fəaliyyətlərə yol verən bəzi məmurların cəzalandırılmamasına dair mövqenin formalaşması bəzi rayonların icra hakimiyyətlərində və digər strukturlarda hələ də neqativ halların qalmasından xəbər verir. Bununla yanaşı, respondentlərin təxminən hər on nəfərindən birində Prezidentin fəaliyyətində korrupsiyaya qarşı mübarizədə sərt mövqe və sülhməramlıların nəzarətində olan ərazilərin də nəzarətimizə qaytarılması istəyi qeydə alınıb.

❑ Prezidentin ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətindəki fəaliyyəti əhalinin mütləq əksəriyyəti tərəfindən çox yüksək qiymətləndirilib.

❑ Ölkəmizin inkişafı və qazandığı uğurların əsasında duran əsas amillərdən biri kimi Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətini əhalinin böyük əksəriyyəti çox yüksək qiymətləndirib.

❑ Aparılan kadr islahatlarına əhalinin mühüm hissəsinin müsbət münasibəti çox yüksəkdir.

❑ 2020-ci ilin əsas qayğılarından biri yeni nəsil koronavirus fonunda əhalinin sağlamlığının qorunması ilə bağlıdır ki, əhalinin mütləq əksəriyyəti Prezidentin bu istiqamətdə gördüyü işləri səmərəli qiymətləndirib.

❑ Pandemiya dövründə əhalinin böyük əksəriyyəti özünü qida məhsullarına və tibbi-gigiyenik vasitələrə əlçatanlıq baxımından tam təhlükəsizlikdə hiss edib. Bunun əksinə olaraq pandemiya dövründə respondentlərin əsaslı hissəsi özünü sağlamlıq və gəlirlərin itirilməsi baxımından müxtəlif dərəcələrdə təhlükədə hiss edib.

❑ Prezidentin əhalinin sosial müdafiəsinin təminatı istiqamətindəki fəaliyyətinə səmərəli qiymət mütləq əksəriyyətin rəyində əksini tapıb.

❑ Qeyri-neft sektorunun inkişafı respondentlərin əksəriyyəti tərəfindən yaxşı dəyərləndirilib.

❑ Sorğuda iştirak edən respondentlərin əhəmiyyətli hissəsi əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsini çox səmərəli qiymətləndirib.

❑ Müharibə dövründə əhalinin özlərinə qarşı gözlədikləri iki təhlükə - Ermənistanın terror hücumuna və müharibə cinayətlərinə məruz qalma halları olub.

❑ Sorğuda iştirak edən təxminən hər on nəfərdən biri İlham Əliyevin prezidentlik dövrünə nəzər saldıqda 2020-ci ildən onun genişmiqyaslı müharibəyə hazırlaşdığını hiss etsə də, hər 5 nəfərdən biri əks mövqe sərgiləyib.

❑ Əhalinin əsaslı hissəsi genişmiqyaslı müharibənin davam etdirilməsində Ali Baş Komandanın ən çox etibar etdiyi iki qüvvənin - ordu və xalq olduğunu bildirib. Ali Baş Komandanın genişmiqyaslı müharibənin davam etdirilməsində xalqa etibar etdiyini deyənlərin yarıdan çoxu Vətən müharibəsində qələbəmizdə Azərbaycan xalqının dövləti və ordunu dəstəkləməsinin rolunu əsas amillərdən biri olaraq dəyərləndirib. Prezidentin genişmiqyaslı müharibənin davam etdirilməsində orduya etibar etdiyini deyənlərin əhəmiyyətli hissəsi qələbəmizdə müasir hərbi texnoloji təminatlı ordunun əsas rol oynadığını bildirib.

❑ Hər üçüncü respondent belə düşünür ki, Ali Baş Komandan genişmiqyaslı müharibənin davam etdirilməsində öz qətiyyətinə və strateji təfəkkürünə etibar edib.

❑ Həmçinin eyni sayda respondentin fikrincə, Ali Baş Komandan genişmiqyaslı müharibənin davam etdirilməsində Türkiyə və Pakistanın siyasi dəstəyinə etibar edib.

❑ Rəyi öyrənilənlərin əsaslı hissəsi belə düşünür ki, 10 noyabr tarixində imzalanmış bəyanat itki vermədən 3 rayonun işğaldan azad olunması ilə səciyyələnib. Digər tərəfdən isə təxminən eyni sayda respondent yuxarıdakı fikirləri təsdiq edərək üçtərəfli bəyanatın Azərbaycanın həm hərbi, həm də siyasi qələbəsini ifadə etdiyini bildirib.

❑ Sorğuda iştirak edənlərin yarısı Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının imzaladığı üçtərəfli bəyanatın Ermənistanın tam məğlubiyyətini ifadə etdiyini bildirib.

❑ Rəyi öyrənilənlərin təxminən hər on nəfərindən biri Qarabağın gələcəyi ilə bağlı qeyri-müəyyənliklərin qalmasından narahatdırsa, çox az hissəsi Ermənistan üzərində tam qələbəni əldə edə və istədiyimiz nəticələrə tam nail ola bilmədiyimizi düşünür.

❑ Ümumiyyətlə, respondentlərin əhəmiyyətli hissəsi əvvəlki dövrlərlə müqayisədə müharibə dövründə ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib. Digər tərəfdən ölkəmizin beynəlxalq informasiya məkanında mövqeyini çox yaxşı qiymətləndirənlərin üçdə iki hissəsi Prezidentin xarici mediaya müsahibələrini müntəzəm olaraq izlədiyini bəyan etdiyi halda, hər dörd nəfərdən biri tez-tez izlədiyini bildirib.

❑ Respondentlərin əksəriyyəti beynəlxalq informasiya məkanında mövqeyimizin güclü olmasını Ali Baş Komandanın beynəlxalq media mənsublarına verdiyi intensiv müsahibələrdə müharibə və sülhü çərçivələmək bacarığı ilə əlaqələndirir. Sözügedən üstünlüyü şərtləndirən digər amillər kimi Türkiyə Cümhuriyyətinin aparıcı media orqanlarının prosesi davamlı olaraq işıqlandırmasını və heç şübhəsiz, digər xarici ölkələrin KİV nümayəndələrinin Azərbaycana gələrək vəziyyətlə yerində tanış olmasını qeyd etmək olar. Respondent rəylərinə görə, ölkə əhalisinin sosial mediada (Facebook, Twitter, Instagram və s.) mütəşəkkil fəallığı, həmçinin Azərbaycandakı diplomatik korpus nümayəndələrinin bölgələrə səfərləri və aktiv fəaliyyəti də mühüm faktorlar sırasındadır.

❑ Əhalinin əsas hissəsi Ali Baş Komandanın xarici media nümayəndələrinə müsahibələrini müntəzəm və təxminən hər dörd nəfərdən biri tez-tez izləyib. İlkin dəyərləndirmələrə görə, həm də onu qeyd edə bilərik ki, respondentlər xalqa müraciətlərə müqayisə etibarilə daha çox üstünlük verib.

❑ Xarici mediaya müsahibələrdə respon-

dentlər tərəfindən əsas üstünlüklər kimi dəyərləndirilən məqamlara gəlincə, Ali Baş Komandanın bütün təxribat xarakterli suallara ustalıqla cavab verməsi, peşəkarlığı ilə həmsöhbətlərini gözləmədikləri vəziyyətə salması və yüksək səviyyəli xarici dil bacarıqlarına malik olması əsas faktorlar kimi ön plana çıxır. Respondentlərin yarısından çoxu Ali Baş Komandanın bu müsahibələr zamanı olduqca soyuqqanlı davrandığı və hisslərini peşəkarlıqla idarə etdiyi mövqeyindən çıxış edib.

❑ Ali Baş Komandanın xalqa müraciətlərinə mövqe bildirən respondentlərin əhəmiyyətli hissəsi əsasən 44 günlük müharibə dövründə Prezidentin proseslərə ciddi nəzarət etməsi, sadə dildə ifadə edilmiş siyasi ritorikaya üstünlük verməsi kimi məqamları ön plana çıxarıb.

❑ Ali Baş Komandanın xarici media mənsublarına verdiyi müsahibələr və xalqa müraciətlərinə əlçatımlılıq baxımından TV və sosial media alətləri respondentlər tərəfindən ən çox istifadə olunan kommunikasiya kanalları kimi qiymətləndirilib. Müharibə dövründə informasiya təhlükəsizliyi səbəbindən internet resurslarına tətbiq olunan məhdudiyyət televiziya kanallarına baxış saylarını daha da artırıb. Məhz bu dövrdə respondentlərin əhəmiyyətli hissəsi məlumatları ardıcıl olaraq AzTV, Xəzər TV və ATV kanallarından əldə etdiyini bəyan edib. Növbəti pillələrdə İTV, Real TV və ARB kanalı yer alıb. Əvvəl də qeyd olunduğu kimi, bu nəticələr TV kanallarının ümumi reytinq göstəricilərini əks etdirmir və müharibə dövrü ilə məhdudlaşır. Ayrı-ayrı dövrlərdə TV kanallarının aylıq, illik reytinq göstəriciləri fərqli ola bilər. Ölkə başçısının sözügedən istiqamətdə fəaliyyəti ilə bağlı məlumatların əldə edilməsinə görə sosial şəbəkələr arasında ilk pillədə Facebook, ikinci və üçüncü pillədə isə müvafiq olaraq Instagram və YouTube platforması qərarlaşır. Bu istiqamətdə əhalinin ölkə başçısının yerli və xarici kanallara verdiyi müsahibə, xalqa müraciət və səfərlərinə dair növbəti məlumat mənbəyi Prezidentin sosial şəbəkə hesablarıdır. Ölkə rəhbərinin müsahibə, xalqa müraciət və səfərlərini sosial şəbəkə istifadəçilərinin üçdə iki hissəsi Prezidentin Twitter hesabından izləyir. Müvafiq məqsədlə Prezidentin Facebook və Instagram səhifələlərinə əhalinin təxminən hər dörd nəfərindən biri müaciət edib. Prezidentin sözügedən istiqamətdə fəaliyyətinə dair məlumat mənbələri sırasında növbəti pillələrdə xəbər saytları və internet TV-lər qərarlaşır.

❑ Prezidentin siyasi nitqində istifadə etdiyi ifadələrin xalqda oyatdığı təəssüratların əsas nəticəsini insanların da gündəlik ünsiyyətdə o ifadələri işlətməyə başlamasında görənlər əhalinin əhəmiyyətli hissəsini təşkil edir.

❑ Əhalinin hər üç nəfərindən ikisi hesab edir ki, dövlət başçısının nitqində istifadə etdiyi ifadələr xalq dilinə yaxın olduğu üçün aforizmlərə çevrilib. Rəyi öyrənilənlərin təxminən yarıya yaxını Prezidentin siyasi nitqində işlətdiyi ifadələrdən sonra insanların sosial şəbəkələrdə bununla bağlı paylaşımlar etməyə başladığını bildirib. Ətrafda bu ifadələrin yazıldığı yazılar, plakatlar məhz ölkə rəhbərinin çıxışlarının yaratdığı təəssüratlardan biri kimi təxminən hər üç respondentdən birinin rəyində öz əksini tapıb.

❑ Sorğuda iştirak edən respondentlər arasında 44 günlük Vətən müharibəsi davam edən dövrdə Prezidentə münasibətini ona təşəkkür məktubu yazaraq bildirənlərə də rast gəlinib.

❑ Ölkə rəhbərinin çıxışlarında “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”, ölkəmizin qələbəsinin təmin edilməsində Ali Baş Komandanın polad siyasi iradəsinin rəmzi olaraq tanınan “Dəmir yumruq” şüarı ən çox yaddaqalan ifadələrdir.

❑ 44 gün davam edən II Qarabağ müharibəsi əhalinin mütləq əksəriyyətinin fikrində Prezident barədə müsbətə doğru təəssürat dəyişikliyinə səbəb olub. Bu respondent seqmenti müharibə nəticəsində Prezidenti xalqa yaxın və xalqın fikrini olduqca önəmsəyən insan kimi tanıdığını və Prezidentin timsalında Heydər Əliyev kimi milli lider nümunəsini gördüyünü bildirib. Təxminən hər beş respondentdən birində Prezident barədə hər hansısa fikir dəyişikliyi müşahidə edilməyib. Bununla yanaşı, fikirlərində heç bir dəyişiklik olmadığını deyənlərin əhəmiyyətli hissəsinin Prezidentə etibarı artıb.

❑ Sorğuda iştirak edənlərin 1/3-nin Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin xüsusi adla qiymətləndirilməsi mövqeyindən çıxış etməsi onu göstərir ki, ictimaiyyət arasında məhz Ali Baş Komandan üçün xüsusi adın təsis olunmasının tərəfdarları çoxdur.

❑ Bununla yanaşı, hər beş nəfərdən birində Ali Baş Komandanın Vətən müharibəsindəki xidmətlərinin yüksək qiymətləndirilməsi ilə bağlı istək formalaşıb.

❑ Respondentlərin mütləq əksəriyyəti müharibədə göstərdikləri xidmətlərə görə zabit və əsgər heyətinin təltif olunmasını müsbət qiymətləndirib. Digər tərəfdən təsis olunan orden və medalların forma və adlandırmaları ilə bağlı hər dörd nəfərdən biri məlumatsızdır.

❑ Müvafiq tarixi günlərin qəbul edilməsi ilə

bağlı qərara münasibət isə respondentlərin mütləq çoxluğu tərəfindən yüksək qiymətləndirilib. Belə ki, 27 sentyabrın Anım Günü kimi qeyd edilməsi ilə bağlı həmfikir olduğunu bəyan edənlər, eləcə də 8 noyabrın Zəfər Günü kimi qeyd edilməsi ilə bağlı qərarı dəstəkləyənlər rəyi öyrənilənlərin mütləq əksəriyyətinin mövqeyini əks etdirir.

❑ Şəhid ailələri və müharibə veteranlarının sosial rifahının yaxşılaşdırılması və dövlət qayğısının təmini istiqamətində müəyyən edilmiş müavinətlərə münasibətə gəldikdə, rəyi öyrənilənlərin üçdə ikisi müsbət yanaşma sərgiləyib. Buna baxmayaraq hər iyirmi nəfərdən üçü əks mövqe sərgiləyib. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, sözügedən məsələ ilə bağlı məlumatsız olduğunu qeyd edənlərin göstəricisi də təxminən eynidir.

❑ Prezidentin yenidənqurma planları ilə bağlı bəyan etdiyi təşəbbüslərə münasibət bildirən respondentlərin fikri bizə onu deməyə əsas verir ki, işğaldan azad olunmuş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam mütləq çoxluqda müşahidə edilməkdədir.

❑ Respondentlərin postbərpa işlərindən sonra region, eləcə də ölkəmiz üçün yeni mərhələdən əsas gözləntiləri məşğulluq və rifahın artacağı, yeni iqtisadi perspektivlər üçün zəminin yaranacağı və II Qarabağ müharibəsinin dondurulmuş münaqişələrin həlli istiqamətində presedent olacağı yönündədir.

❑ 44 günlük müharibə dövründə və son 6 ayda fəaliyyəti ən çox bəyənilən qurumlar Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Xarici İşlər Nazirliyi olub. Bunun əksinə olaraq, 44 günlük müharibə dövründə fəaliyyəti ən çox bəyənilməyən səhiyyə qurumları, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Lakin son 6 ayda fəaliyyəti bəyənilməyən qurumlar səhiyyə qurumları, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir.

❑ Sorğu nəticələrinə əsasən cari ilin ortalarından son rübünə doğru Prezidentə və I Vitse-prezidentə olan ictimai inam və etimadda yüksək artım qeydə alınıb. Halbuki, Milli Məclis, məhkəmə və yerli icra hakimiyyəti orqanlarına olan inam və etimad səviyyəsində müxtəlif miqyaslarda azalma müşahidə olunub.

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
info@stm.az www.stm.az